25 fevral 2022 №16 (1889) www.medeniyyet.az

MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ermənistan rəhbərliyi sülh müqaviləsinə razılıq verərsə...



İstərdim ki, siz işğaldan azad etdiyimiz ərazilərdə də olasınız. Hazırda, yeri gəlmişkən, artıq ikinci beynəlxalq səyahətçilər qrupu gəlir, üstəlik, onlar bizim onlara yardım etməyimizi xahiş edirlər, yəni, biz onları çağırmırıq, onlar özləri gəlirlər.

Prezident İlham Əliyev bu sözləri fevralın 23-də Moskvada, TASS agentliyində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə yerli media mənsublarının Azərbaycana səfər etmək niyyəti barədə danışarkən deyib.

Dövlət başçısı vurğulayıb ki, işğaldan azad etdiyimiz ərazilərdəki dağıntıları görmək ağır bir mənzərədir. Prezident müqayisə olaraq diqqətə çatdırıb ki, biz Livanın ərazisinə bərabər bir ərazini bərpa etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni, sözün əsl mənasında, hər şey dağıdılıb.

Prezident "RT" telekanalının və "Rossiya seqodnya" beynəlxalq informasiya agentliyinin baş redaktoru Marqarita Simonyanın suya erməni soyadlı əcnəbi vətəndaşların Azərbaycana girişinə qadağa qoyulması barədə sualına cavab olaraq onu da çəkiliş qrupu ilə ölkəmizə gəlməyə dəvət edib.

davamı səh. 2-də

## Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın iclası

Fevralın 23-də nazir Anar Kərimovun iştirakı ilə Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın iclası keçirilib.

Nazir bildirib ki, İctimai Şuradan gözləntimiz budur ki, ictimaiyyət ilə Mədəniyyət Nazirliyi arasında körpü yaratsın. Vətəndaş cəmiyyətinin səsini bizə çatdırsın. Vətəndaş cəmiyyətinin baxışı bizim üçün vacibdir. İctimai Şura vəzifədir, imtiyaz deyil. İctimai Şuranın vəzifəsi məsuliyyətdir.

səh. 2




## Düşmən qarşısında əyilməyən "Oğul"

### Xocalı soyqırımının ildönümündə yeni filmin təqdimatı

Fevralın 28-də Nizami Kino Mərkəzində Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli araşdırma filminin təqdimatı keçiriləcək. Film 1992-ci ildə Qarabağ müharibəsi zamanı əsir götürülən azərbaycanlı hərbçi Natiq Qasımov haqqındadır.

Natiq Qasımov Birinci Qarabağ müharibəsi zamanı beş gün təkbaşına mühasirədə qalır, ermənilərə müqavimət göstərərək təslim olmur. Yalnız ermənilər onu Xocalıda girov götürülən 22 sakini öldürəcəkləri ilə təhdid etdikdən sonra silahı ataraq, sığındığı alban kilsəsindən çıxır. Lakin son ana qədər əlindəki Azərbaycan bayrağını ermənilərə vermir. Natiq Qasımovun sonrakı aqibəti naməlumdur.

Filmin rejissoru və ssenari müəllifi Karan Sinq üç il ərzində Ermənistan, Azərbaycan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə danışıb. Natiq Qasımov erməni hərbçiləri tərəfindən dindirilən zaman orada olan italiyalı hərbi fotoreportyor Enriko Sarsininin müsahibəsi də filmdə yer alıb.

Filmin təsvir rejissoru Simon Stanforddur. 46 dəqiqəlik filmdə faktın bərpası üçün azərbaycanlı aktyorların ifasından da istifadə olunub.

...30 il keçməsinə baxmayaraq, ana oğlunun sağ olduğuna və qayıdacağına inanır.

Təqdimatda Natiq Qasımovun ailəsi də iştirak edəcək.

# Xocalıdan 30 il sonra – qisas qiyamətə qalmadı

### Daşdan yonulmuş "Ana harayı"nda Xocalı qisasının səsi də var...

Azərbaycanın yeni tarixinin ən faciəli səhifəsi olan Xocalı soyqırımının 30 ili tamam olur. Erməni silahlı dəstələrinin 1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərində törətdiyi soyqırımı dünya tarixində insanlıq əleyhinə ən amansız cinayətlərdən biri, bəşəriyyətin vicdanına həkk olunan qara ləkədir.

Bir gecənin içində 613 soydaşımız, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilib. Azərbaycanlı olduqları, doğma yurdda yaşamaq istədikləri üçün...

Kütləvi qırğında 8 ailə bütünlüklə məhv edilib. 25 uşaq hər iki valideynindən, 130 uşaq valideynlərinin birindən məhrum olub, 487 nəfər ağır yaralanıb. 1000-dən çox Xocalı sakini erməni əsirliyinin dəhşətini yaşayıb.

Xocalı müsibətinin konkret talelərdəki yaşantılarından savayı bir də milli dərd kimi acısı da var. 1992-ci ildən sonra 28 il Xocalını milli ruhumuzu yaralayan, belimizi bükən sonsuz kədər kimi qeyd etdik.

2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfər Xocalının qisası da oldu. Millət olaraq qəddimizi dikəltdi.




Xocalının kədəri bundan sonra da qan yaddaşımızda əbədi qalacaq. Amma artıq ikinci ildir bəşəri kədərin abidəsi önünə milli ruhumuzu dirçəldən Zəfərin təsəllisi ilə gedirik...

Qisas qiyamətə qalmadı. Xocalı qurbanlarının xatirəsinə ucaldılmış bu memorialda – "Ana harayı"nda Xocalı şəhidlərinin düşməndən alınan qisasının səsi də var...

## Yaradıcı sənayedə biznes imkanları müzakirə edilib

İqtisadiyyat, mədəniyyət, qabaqcıl texnologiya və innovasiyaları özündə birləşdirən yaradıcı və mədəniyyət sənayeləri dünyada dinamik inkişaf edir. Ədəbiyyat, dizayn, musiqi və teatr, memarlıq, moda və təsviri sənət, film, video və foto sənəti, reklam və s. kimi sahələrdən ibarət olan yaradıcı sənaye həm də biznes sahəsidir. Azərbaycanda da bu sahənin inkişafı və biznes imkanları genişdir.




Ölkəmizdə yaradıcı sənayenin inkişaf etdirilməsi, bu sahədə biznesin dəstəklənməsi, yaradıcı şəxslərin və biznes subyektlərinin təşkilatlanması, bununla bağlı dövlət və özəl sektor arasında əlaqələrin genişləndirilməsini müzakirə etmək məqsədilə fevralın 23-də "Yaradıcı sənayelərdə çağırışlar və biznes imkanları" mövzusunda ictimai müzakirə təşkil olunub.

Mədəniyyət Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi, KOBİA yanında İctimai Şuranın və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının təşkilatçılığı ilə keçirilmiş tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri və yaradıcı sənaye sahəsində fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov iştirakçıları salamlayaraq tədbirin məqsədini diqqətə çatdırıb, müzakirələrin bu istiqamətdə faydalı olacağına ümidvar olduğunu bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iqtisadiyyatın bir sahəsi olan yaradıcı sənayenin qlobal miqyasda sürətlə inkişaf edərək prioritet sektorlardan birinə çevrildiyini və bu sahəyə böyük marağın olduğunu bildirib.

davamı səh. 3-də

## Azərbaycanın musiqi ulduzları Moskva səhnəsində

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondunun dəstəyi ilə fevralın 22-də Moskvada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinə həsr olunmuş mədəniyyət tədbirləri başlayıb.

"Moskvada Azərbaycan günləri" silsilə tədbirləri çərçivəsində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Azərbaycan" pavilyonunda "Azərbaycan xalçaları: yeni baxış" adlı sərgi açılıb. "Azərxalça" ASC ilə birgə təşkil olunan sərgidə "Qarabağ" qrupuna aid xalçalar nümayiş etdirilir.

Həmçinin silsilə tədbirlər çərçivəsində Yeni Tretyakov Qalereyasında Azərbaycanın, Rusiyanın və keçmiş SSRİ-nin Xalq rəssamı Tahir Salahovun qalereyanın fondundakı əsərlərindən ibarət sərgi açılıb.

Fevralın 22-də axşam "Moskvada Azərbaycan günləri" adlı tədbirlər çərçivəsində "Qelikon-opera" Teatrında "Azərbaycanın musiqi ulduzları Moskva səhnəsində" adlı qala-konsert keçirilib.




davamı səh. 8-də

## Otuz yaşlı dərdin səhnə təcəssümü

Xocalı adlı dözülməz ağrımızın, sərhədsiz kədərimizin otuzuncu ildönümünə yaxınlaşırıq. Faciənin miqyasından səni ilbəil məsafə olaraq uzaqlaşdıran rəqəmlər artdıqca onun içində qalaqlanan, çiyinlərində ağırlaşan yükünü daha dərindən hiss edirsən. Söhbət Xocalının söz, sənət, ədəbiyyat, incəsənət üçün yükündən, ağrısından, ağırlığından gedir.

Həmişə bu ildönümləri, faciənin faktları, xüsusilə də Xocalı faciəsinin sağ qalan və artıq yaşlanan şahidləri ilə bağlı oxuduqca, onları dinlədikcə "Görəsən, niyə bu boyda təsvirlər, xatirələr, ifadələr bir təsirli bədii əsərə çevrilə bilmir" sualına cavab tapmağa çalışıram. Əlbəttə, bu mövzuda ədəbiyyatımızda da, teatr və kino, eləcə də musiqi sənətimizdə nümunələr var. Amma etiraf edək ki, Xocalı faciəsinə bəşəri bir miqyasda şahidlik edib, məhz həmin miqyasda bizə, dünyaya təqdim edən nümunə yoxdur...

İndi isə keçək, sərlövhədə qeyd etdiyimiz kimi, teatrların Xocalı ilə bağlı cari proqramlarına. Xatırladaq ki, dövlət başçısı 28 yanvar 2022-ci il tarixində Xocalı soyqırımının otuzuncu ildönümü haqqında sərəncam imzalayıb. Bu isə o deməkdir ki, teatrların Xocalı mövzusu, sadəcə, fevral ayı ilə məhdudlaşmalı deyil, yaradıcı heyətlərin ümumilikdə il ərzində bu mövzuda yaradıcı təşəbbüsləri həyata keçirmək imkanları var...

davamı səh. 5-də

## Bakıda "FantazEU" festivalı keçiriləcək

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi martın 1-dən 18-dək Bakıda "FantazEU" adlı mədəni irs festivalı keçirəcək. Nümayəndəliyin rəhbəri Peter Mixalko və Avropa İttifaqı (Aİ) ölkələri diplomatlarının iştirakı ilə fevralın 22-də Beynəlxalq Muğam Mərkəzində keçirilən mətbuat konfransında festivalın proqramı barədə məlumat verilib.



Qeyd olunub ki, artıq ənənə halını alan festival Avropa və Azərbaycan mədəni irsi arasında əlaqəni nümayiş etdirmək, Azərbaycanda Avropa mədəni irsinə diqqət yetirməklə, mədəni müxtəlifliyi təşviq etmək məqsədi daşıyır. Festival bu il Almaniya, Belçika, Bolqarıstan, Çexiya, Fransa, İsveç, Latviya, Litva, Macarıstan, Polşa, Slovakiya və Yunanıstanın iştirakı ilə təşkil olunacaq.

davamı səh. 8-də

Bənzərsiz ifası ilə ölməzlik qazanan sənətkar



səh. 3

Mədəniyyətə töhfə verənlərin əməyi yeni mexanizmlə qiymətləndiriləcək

səh. 3



"Şuşa – ənənədən gələcəyə" dəfiləsi keçiriləcək

səh. 4

№16 (1889)
25 fevral 2022
www.medeniyyet.az

# Ermənistan rəhbərliyi sülh müqaviləsinə razılıq verərsə...

## Prezident İlham Əliyev Rusiyanın media rəhbərləri ilə görüşdə Ermənistanla münasibətlərdən də danışıb

*əvvəli səh. 1-də*

İlham Əliyev qeyd edib ki, bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana səfərləri, o cümlədən idman yarışlarında iştirakı buna sübutdur: “Mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı...”.

Prezident bir neçə il əvvəl Katolikos Qareginin Bakıya səfərini də xatırladıb: “Mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5 mindən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o, özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm – erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var... Biz öz vətəndaşlarımızın və qonaqlarımızın təhlükəsizliyinə cavabdehik. Buna görə xahişimiz ondan ibarətdir ki, ya Ermənistan vətəndaşları, ya da erməni soyadlı vətəndaşlar Azərbaycana gələndə müvafiq orqanlar məlumatlandırılsın... Azərbaycana gəlməyə rədd cavabı verilən hallar olub. Lakin belə hallar məhz ona görə olub ki, bu formal qaydalara riayət edilməyib...”.

### İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub

“Əgər Ermənistan rəhbərliyi sülh müqaviləsi üzərində işləməyə başlamaq barədə bizim ideyaları qəbul etsə, belə səfərlər adi hal ala bilər” deyən dövlət başçısı onu da diqqətə çatdırıb ki, İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub: “Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların, ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır...”.

Azərbaycanla Rusiya arasında münasibətlər və fevralın 22-də Moskvada imzalanan “Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” barədə suala cavabında İlham Əliyev qeyd edib ki, uzun illər boyu Rusiya ilə Azərbaycan arasında münasibətləri mən də, Prezident Putin də strateji tərəfdaşların münasibətləri kimi xarakterizə etmişik:



“Münasibətlərin indiki formatı ali formatdır. Yəni, bundan yüksək format praktiki olaraq yoxdur. Dövlətlərarası münasibətlərdə bu, belə demək mümkünsə, aysberqin zirvəsidir... Bəyannamənin adının özü çox şeydən xəbər verir. Bu, artıq dediyim kimi, qarşılıqlı fəaliyyətin səviyyəsinin artırılması üzrə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsi, Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrupun bir ildən artıq müddətdə, – keçən ilin yanvar ayından, – bu Bəyannamənin mətni üzərində konkret işinin nəticəsidir. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq bütün sahələrini ehtiva edir. Əlbəttə, bu Bəyannaməni müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər də işlənib hazırlanma mərhələsindədir”.

Prezident əlavə edib ki, Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər – ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş səkkiz yol xəritəsi reallaşma mərhələsindədir: “Yəni, münasibətlər o dərəcədə şaxələndirilib ki, bizim hansı sahələrdə əməkdaşlıq etməyimizi müəyyənləşdirməkdənsə, hansı sahələrdə əməkdaşlıq etmədiyimizi göstərmək və ya söyləmək daha asandır. Əlbəttə, hesab edirəm ki, bizim iki qonşu ölkə üçün bu səviyyəni qarşılıqlı müttəfiqlik səviyyəsi kimi müəyyən etmək böyük nailiyyətdir və əlbəttə, böyük məsuliyyətdir. Biz gələcəkdə də həmişə bu yüksək səviyyəyə uyğun olmalıyıq”.

Qarabağda vəziyyətin nizamlanması da nəzərə alınaraq, Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Şanxay Əməkdaşlıq Təşkilatına meyil edə bilməsi barədə suala cavab olaraq Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Şanxay Əməkdaşlıq Təşkilatı ilə bağlı biz müəyyən mənada artıq fəaliyyətə başlamışıq. Artıq neçə ildir ki, biz dialoq üzrə tərəfdaşıq. Bu, birinci pillədir. İkinci pillə – müşahidəçilərdir. Biz bir neçə il bundan əvvəl öz statusumuzu müşahidəçi statusuna qədər yüksəltmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Katibliyinə rəsmən müraciət etmişik: “Digər inteqrasiya layihələrinə gəldikdə, biz bunun məqsədəuyğunluğunu və milli maraqlarımıza nə dərəcədə cavab verməsini əsas götürürük. Fikrimcə, heç kəs üçün sirr deyil ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında aparıcı rol Rusiyaya məxsusdur. Bu, yaxın vaxtlarda MDB məkanında nümayiş etdirildi və hətta Qazaxıstan hadisələrindən əvvəl də hamıya aydın idi. Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri, habelə 43 bənddən 2-si – 6-cı və 16-cı bəndlər, – zəruri hallarda hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir. Mənim fikrimcə, bu, tamamilə kifayətdir. Axı aydındır ki, KTMT-ni KTMT edən Rusiyanın orada olmasıdır. Əgər Rusiya KTMT-də olmasa, KTMT heç kəsin yadına düşməz. Hər şey bundan irəli gəlir. Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla KTMT-nin digər üzvləri ilə bizim çox etimadlı, yaxın, dostluq münasibətlərimiz var. Fikrimcə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Hər halda biz Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusunda olduğumuzu rəsmən bəyan etmişik...”.

Prezident qeyd edib ki, həm ekspertlər cəmiyyətində, həm də siyasi müstəvidə Azərbaycanın Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinə dair çoxdan diskussiya gedir: “Lakin biz burada da onu əsas götürürük ki, bu, bizim iqtisadi maraqlarımıza nə dərəcədə cavab verəcək, çünki bizim strategiyamız və taktiki addımlarımız həmişə öz resurslarımıza, nəyə malik olmağımıza əsaslanıb. Biz özünəyetərli iqtisadiyyat yaratmağa və istər beynəlxalq maliyyə təsisatlarından, istərsə də hər hansı başqa maliyyə mədaxilindən asılı olmamağı bacarmışıq...”.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərin bərpası və insanların doğma yurdlarına qayıdışı barədə suala cavabında İlham Əliyev deyib ki, bu prosesin sürəti ərazilərin minalardan təmizlənməsindən daha çox asılıdır: “Müharibə başa çatandan sonra ilk aylarda Vladimir Vladimiroviç Putinin çağırışlarına baxmayaraq, baş nazir Paşinyan onlarda mina xəritələrinin olmaması barədə inadla danışırdı. Bu, yalan idi və biz bilirdik ki, minalanmış sahələrin xəritəsi var. Bir neçə aydan sonra artıq onlar etiraf etdilər ki, bəli, belə xəritələr mövcuddur, lakin onları bizə verməkdən imtina edirdilər... Minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir. Yəni, əslində, yararsızdır. Bu, başlıca problemdir ki, niyə biz artıq indi insanları qaytara bilmirik. Buna baxmayaraq, biz indi pilot layihəni icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərindən birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq”.

Prezident bildirib ki, bizim qarşıda böyük işlərimiz var – su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışdıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq: “Deməliyəm ki, bununla paralel olaraq, işğal dövründə biz qaçqınlar üçün fəal şəkildə evlər tikirdik, hər il təxminən 5-6 min ailəni, təqribən 30 min insanı yerləşdirirdik. Yəni, onlardan təqribən 70 faizi normal yaşayır. Biz Bakıda, Sumqayıtda, Gəncədə və bir çox şəhərlərdə evlər tikirdik. Lakin onların 30 faizi hələ də uyğunlaşdırılmayan binalarda, yataqxanalarda, uşaq bağçalarında və ağır şəraitdə yaşayır. Buna görə də, ilk növbədə, bu kateqoriyadan olan insanlar geri qaytarılacaq. Artıq bizim tərəfimizdən Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcək. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. “Yaşıl enerji” prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası “yaşıl enerji” zonası və “ağıllı şəhərlər”, “ağıllı kəndlər” konsepsiyası olacaq. Bu insanlar çox gözləyiblər, bu səbəbdən onlar Azərbaycanda mümkün olan ən yaxşı şəraitdə yaşamalıdırlar...”.

Görüşdən sonra iştirakçılara Ermənistanın otuz il ərzində işğal edilmiş ərazilərdə törətdiyi dağıntılar, Azərbaycan mədəniyyəti, tarixi, dini irsinin məhv edilməsini əks etdirən “Qarabağ işğaldan əvvəl və sonra” adlı fotoalbom təqdim edilib.

***

Qeyd edək ki, Rusiyanın media rəhbərləri ilə görüşdən öncə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva TASS agentliyinin “Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında” adlı ekspozisiyası ilə tanış olublar.

TASS və AZƏRTAC-ın birgə layihəsi olan ekspozisiyada iki ölkə xalqlarının siyasi, iqtisadi, hərbi, mədəni və digər sahələrdə dostluğunun və əməkdaşlığının tarixinin ən yeni dövrü barədə söhbət açılır.

Agentliyin baş direktorunun birinci müavini Mixail Qusman fotoşəkillər barədə məlumat verib. Ekspozisiya iki ölkənin mədəniyyət sahəsində münasibətlərindən bəhs edir. Burada 2002-ci ildə Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışından, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Zıkinanın konsertindən sonra Heydər Əliyevin onunla söhbəti zamanı çəkilən kadrlar da var.

Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdən sonra İlham Əliyevə onun bütün prezidentlik dövrü ilə bağlı TASS xəbər lentləri və fotoxronikasının arxivinin elektron toplusu hədiyyə olunub. Burada 32 mindən çox məlumat və 400-ə yaxın fotoşəkil var.

Dövlətimizin başçısı da TASS agentliyinə xatirə hədiyyəsi təqdim edib.

***

Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri fevralın 23-də başa çatıb.

# Mədəni əməkdaşlığın dərinləşdirilməsi

## “Moskva Bəyannaməsi”nin dörd bəndi mədəniyyətlə bağlıdır

Fevralın 22-də Moskvada iki ölkənin prezidentləri tərəfindən imzalanan “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”nin 43 bəndindən 4-ü mədəniyyətlə bağlıdır.

İki ölkə arasında mədəni əməkdaşlığın önəmi sənədin preambula hissəsində də qeyd olunub və tərəflərin bəyannaməni “Rusiya və Azərbaycan və iki ölkənin xalqları arasında dostluq və mehriban qonşuluq tarixi ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə arxalanaraq”, eləcə də “iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, təhsil, sosial sahələrdə, eləcə də səhiyyə, gənclər arasında əməkdaşlıq və idman sahəsində yaxınlaşmasının vacibliyini dərk edərək” imzaladığı vurğulanır.

Bəyannamənin 40-cı bəndində deyilir: “Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq iki ölkənin xalqlarının mənəvi və mədəni yaxınlığının saxlanmasına hərtərəfli yardım etmək, Tərəflərin ərazilərində yaşayan milli azlıqların tarixi, mədəni və dini irsinin, eləcə də etnik, dil və mədəni özünəməxsusluqlarının qorunması, saxlanması və inkişafını təmin etmək, onların nümayəndələrinin ictimai-siyasi, mədəni və sosial-iqtisadi həyatda fəal iştirakına şərait yaratmaq niyyətindədirlər. Bununla əlaqədar olaraq, Tərəflər milli qanunvericilik çərçivəsində Rusiya Federasiyasının və Azərbaycan Respublikasının iqtisadi, mədəni və humanitar əlaqələrin genişlənməsinə töhfə verəcək diaspor təşkilatlarının fəaliyyətlərinin təşviqi üçün addımlar atacaqlar”.

Növbəti bənd bu sahədə əlaqələrin təşviqi barədədir: “Rusiya Federasiyası və Azərbaycan Respublikası mədəniyyət və incəsənət, təhsil, elm, turizm və idman sahələrində qarşılıqlı əlaqələri dərinləşdirməyə, ictimai və gənclər təşkilatları, tədris təşkilatları və təhsil müəssisələri, innovasiya mərkəzləri, kütləvi informasiya vasitələri arasında həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əlaqələrin qurulmasına yardım etməyə davam edəcəklər”.

42-ci bənddə deyilir: “Tərəflərdən hər biri öz ərazisində digər Tərəfin humanitar, elmi-texniki, mədəni və informasiya əlaqələrinin inkişafına yönəlmiş, o cümlədən də ikitərəfli sazişlər əsasında və milli qanunvericilik çərçivəsində informasiya-mədəniyyət mərkəzləri vasitəsilə fəaliyyətini dəstəkləyəcəkdir”.

Bəyannamənin son bəndi mədəniyyətin müxtəlif sahələrində tədbirlərin təşviqi barədədir: “Tərəflər konsert-qastrol fəaliyyəti, kitabxana və muzey işi, kinematoqrafiya və mədəniyyət üzrə təhsil sahəsində əməkdaşlığın dərinləşdirilməsini, eləcə də irimiqyaslı mədəni maarifləndirmə tədbirlərinin keçirilməsini təşviq edəcəklər”.

Bəyannamədə həmçinin beynəlxalq informasiya təhlükəsizliyi, kütləvi kommunikasiya vasitələri sahəsində (34-cü bənd) və iki ölkənin regionları arasında mədəni əlaqələri də əhatə edən əməkdaşlıqdan (35-cü bənd) bəhs olunur.

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın iclası keçirilib

## Anar Kərimov: “Vətəndaş cəmiyyətinin baxışı bizim üçün vacibdir”

Fevralın 23-də nazir Anar Kərimovun iştirakı ilə Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın iclası keçirilib.

Tədbiri giriş sözü ilə açan Anar Kərimov “Şuşa İli” elan edilən 2022-ci ilin mədəniyyətimiz üçün zəngin olacağını diqqətə çatdırıb, bu istiqamətdə İctimai Şuranın da fəaliyyətinə uğurlar arzulayıb.

İctimai Şuranın sədri Gəray Əlibəyov çıxış edərək şuranın fəaliyyətindən danışıb. Şura tərkibində 7 işçi qrupun yaradıldığını deyən sədr teatr və kino sahəsi üzrə işçi qrupu tərəfindən keçiriləcək 1-ci Müstəqil teatrların festivalı haqqında məlumat verib. Bildirib ki, festivalda 17 özəl teatr iştirak edəcək. Sədr digər işçi qrupların görəcəyi işlərdən də danışıb. Qeyd edib ki, ümumilikdə 100-ə yaxın tədbir nəzərdə tutulur.

Anar Kərimov çıxışında bildirib ki, tədbirlərin sayı yox, keyfiyyətinə önəm verilməlidir: “İctimai Şuradan gözləntimiz budur ki, ictimaiyyət ilə Mədəniyyət Nazirliyi arasında körpü yaratsın. Vətəndaş cəmiyyətinin səsini bizə çatdırsın. Vətəndaş cəmiyyətinin baxışı bizim üçün vacibdir. İctimai Şura vəzifədir, imtiyaz deyil. İctimai Şuranın vəzifəsi məsuliyyətdir. Bu baxımdan nazirlik ilə konstruktiv əməkdaşlıq edilməlidir”.



İctimai Şuranın sədr müavini Şahin Qədirov bildirib ki, işəgötürmə sahəsində problemlər mövcuddur.

Nazir qeyd edib ki, işə götürülmə üçün platforma, meyar müəyyən edilməlidir və bu vasitə ilə proses şəffaf şəkildə həyata keçirilməlidir. Sistem formalaşmalıdır ki, pərakəndəlik olmasın. Əks halda şəffaflıq və keyfiyyət olmayacaq. Artıq bir ildir islahatlara başlanılıb. Uşaq musiqi və incəsənət məktəblərinə Dövlət İmtahan Mərkəzi ilə birgə şəffaf şəkildə imtahanlar keçiriləcək. Bu nümunə teatrlar, mədəniyyət klubları və digər mədəniyyət müəssisələrinə də tətbiq olunacaq.

“Nazirlik keçid dövründədir. İslahatların arxasında sağlam niyyət var. Uzun illərdən qalan problemləri həll etmək lazımdır”, – deyə Anar Kərimov bildirib.

İctimai Şuranın sədr müavini Əkbər Yolçuyev işğaldan azad olunmuş ərazilərdə mədəni irsimizlə bağı mövcud olan problemlərdən danışıb. Birgə həll yolları müzakirə olunub.

Nazirliyin Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin əməkdaşı Elgün Əliyev aidiyyəti üzrə görülən işlərdən bəhs edərək bildirib ki, 194 şəhid ailəsi üzvü işlə təmin olunub. Qeyd edilib ki, işəgötürülmə ilə bağlı sözügedən fəaliyyət davam etdirilir.

Sonda çıxış edən Anar Kərimov bildirib ki, nazirliyin aidiyyəti şöbələri ilə İctimai Şura arasında ayda bir dəfədən az olmayaraq görüş keçirilməlidir. Mədəniyyət əyləncə deyil, sərvətdir, mirasdır, güc-qüvvədir. Mədəniyyət çox mühüm məsələdir. Gələcək nəsillər qarşısında öhdəliyimiz var. Məhz buna görə də İctimai Şura ilə birlikdə səmərəli, effektiv fəaliyyət qurulmalıdır.

# “Unutmarıq” – Teatr Muzeyində Xocalı anılıb

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş “Unutmarıq” adlı tədbir keçirilib.



Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova tədbiri açaraq Xocalı faciəsi haqqında məlumat verib.

Xocalı faciəsinin canlı şahidi, “Erməni zindanında 8 gün” kitabının müəllifi Dürdanə Ağayeva əsirlikdə olduğu müddətdə başına gələn hadisələrdən danışıb.

Xocalı sakinləri Elşad Ağayev, Sevda Kərimova, Mürvət Məmmədov, Vərziyar Əliyeva və İman Allahverdiyev faciə zamanı şahidi olduqları erməni terrorizminin dəhşətlərindən söhbət açıblar.

Tədbirdə muzey əməkdaşları tərəfindən hazırlanmış Xocalı hadisələrini əks etdirən videoçarx nümayiş olunub. Xocalı şəhidlərinin xatirəsinə ithaf olunmuş kompozisiya təqdim edilib.

# 17 dövlətin qanunvericilik orqanı Xocalı soyqırımını tanıyıb

Fevralın 24-də Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar konfrans keçirilib.

Tədbirdə XİN nəzdində fəaliyyət göstərən diplomatiya könüllüləri qrupunun üzvləri, tələbələr iştirak edib.

Konfransda çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov Xocalı soyqırımının beynəlxalq hüquq kontekstində təhlilini aparıb. Bildirib ki, hazırda 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-ın 24 ştatı, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu soyqırımı, insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul edib.

Çıxışlardan sonra Xocalı soyqırımından bəhs edən “Sonsuz dəhliz” filmi nümayiş olunub.

# Yaradıcı sənayedə biznes imkanları müzakirə edilib

## İşğaldan azad olunmuş ərazilərdə yaradıcı sənayenin də təşəkkül tapması vacibdir

əvvəli səh. 1-də

Diqqətə çatdırılıb ki, hələ 2019-cu ildə Mədəniyyət Nazirliyi tərəfindən yaradıcı sənayelərlə bağlı forum keçirilib. Yaradıcı sənayenin inkişafı istiqamətində nazirliyin fəaliyyəti çoxşaxəlidir. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, yeni yaradılan Azərbaycan Yaradıcı Sənayelər Federasiyası ilə birgə bu sahədə yaxşı təcrübələrin və sektorun problemlərinin öyrənilməsi, satış platformalarının yaradılması və digər istiqamətlərdə işlər aparılır. Bu sahədə qanunvericilikdə olan boşluqların aradan qaldırılması da vacib məsələdir.

Anar Kərimov qeyd edib ki, fəaliyyəti səmərəli qurmaq üçün bu sahə ilə bağlı əlimizdə real statistika, etibarlı rəqəmlər olmalıdır. Hazırda əldə olan məlumata görə, ümumi daxili məhsulda (ÜDM) yaradıcı sənayenin payı təxminən 1-2 faiz təşkil edir, amma düşünürük ki, bu rəqəm realda daha yüksəkdir.

Nazir vurğulayıb ki, qarşımızda duran vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərdə yaradıcı sənayenin də təşəkkül tapmasıdır: “Böyük qayıdış” layihəsi təkcə orada abidələrin bərpası ilə məhdudlaşmır, ora həm də Azərbaycan ruhunun qaytarılması vacibdir. Bildiyiniz kimi cənab Prezident tərəfindən bu il “Şuşa İli” elan edilib. Biz istəyirik ki, yaradıcı insanlarımız bu işlərdə bizə yaxından kömək etsin. Gələn aydan “Şuşa talks” layihəsinə start veriləcək. Yaradıcı insanlardan bu məsələdə məsləhətlər istəyəcəyik”, – deyə A.Kərimov əlavə edib.

Özəl sektorda yaradıcı sənayenin təşviqi ilə bağlı fikirlərini bölüşən nazir musiqi və incəsənət məktəblərində özəl sektora şərait yaradılmasının da nəzərdən keçirildiyini deyib. Bildirib ki, kadrların yetişdirilməsi əsas prioritetlərdən biridir. Bu məkanlar güzəştli şərtlərlə sahibkarların da istifadəsinə verilə bilər: “Biz onlara şərait yaradacağıq ki, həmin məkanlarda treninqlər keçə bilsinlər. Əgər layihə uğurlu olarsa, bu işi davam etdirəcəyik”.




KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Azərbaycanda yaradıcı sənayelərin inkişafını şərtləndirən amillərdən biri də onların ixrac potensialının artırılmasıdır. Bu məqsədlə dövlət-özəl əməkdaşlığının potensialı artırılmalı, qanunvericilikdə müəyyən güzəştlər tətbiq edilməlidir: “Məsələn, yerli kino sənayesində peşəkar çəkiliş studiyalarının olmaması bu məhsulun ixrac imkanını aşağı salır. Həmçinin, ixrac olunacaq kreativ məhsulların brendləşməsini təklif edirik. Burada, sənaye və kənd təsərrüfatında dövlət dəstəkli “Made in Azerbaijan” kimi, yaradıcı biznesi də ixraca təşviq edəcək brendin yaradılması daha yaxşı olardı...”.

Orxan Məmmədov bildirib ki, kreativ biznesin daha çox şəhərlərin inkişafına təkan verdiyini və ölkəmizin zəngin ənənələrini nəzərə alsaq, yaradıcı turizm istiqamətinin genişlənməsini təklif etmək olar. Aqroturizm prinsiplərinə uyğun olaraq regionlarda fəaliyyət göstərən emalatxanaları, ailə müəssisələrini əlavə olaraq qonaqlama tipli obyektlərə uyğunlaşdırmaq mümkündür.

KOBİA-nın sədri həmçinin qeyd edib ki, klasterləşməyə dəstək vermək istiqamətində “kreativ klaster”lərin yaradılması məqsədəuyğun olardı: “Bu tip strukturlar Bakı şəhərində çox az sayda fəaliyyət göstərir. Təklif edirik ki, bu məqsədlə Mədəniyyət Nazirliyinin regionlarda olan tikililərindən istifadə qaydaları müəyyən edilsin. Müxtəlif araşdırmalar göstərir ki, kreativ məkanlar şəhərlərin canlanmasına təkan verir, bölgələrin müsbət imicini formalaşdırır, sənaye zonalarını mədəniyyət mərkəzlərinə çevirir, biznes və turistlər üçün cəlbediciliyi artırır...”.

Tədbirə videoformatla qoşulan Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov rəhbərlik etdiyi qurumun bu sahədə fəaliyyəti barədə məlumat verib, əqli mülkiyyət və kreativlik anlayışlarının sıx təmasda olduğunu, kreativ sənayenin və müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payının artdığını diqqətə çatdırıb.

Azərbaycan Yaradıcı Sənayelər Federasiyası İdarə Heyətinin sədri Vasif Eyvazzadə qeyd edib ki, yaradıcı sənaye sahəsinin üç prinsipial istiqamətdə inkişaf etdirilməsi zəruridir. Bunlar hüquqi, institusional və maliyyə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləridir. Eyni zamanda yaradıcı sənaye sahəsində hökumət, qeyri-hökumət və özəl sektor arasında inklüziv münasibətlərin qurulması bu sahənin iqtisadi məzmununun gücləndirilməsinə kömək edəcək.

“Biz bu sahə üzrə İngiltərədə təcrübə mübadiləsi apardığımız zaman gördük ki, orada Yaradıcılıq Sənayesi Federasiyası və bu kimi qurumlar, şirkətlər birlikdə müzakirə aparır, biznes mərkəzdə ərazini icarəyə götürüb orada fəaliyyət göstərirlər. Hazırda Azərbaycanda belə bir federasiya formalaşır və məqsəd də budur ki, kreativ sənayedə fəaliyyət göstərənlərin fikirləri ümumiləşdirilib müəyyən dairələrə çatdırılsın”, - deyə Vasif Eyvazzadə bildirib. O qeyd edib ki, Bakı şəhərinin Baş planına paytaxtda kreativ mərkəzin yaradılması da daxil edilib. Mərkəzdə marketinq, reklam, dizayn və digər şirkətlər bir araya gələrək fəaliyyət göstərə biləcək.

Tədbirdə yaradıcı sənayenin müasir biznes çağırışları, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı bilik və bacarıqlarının artırılması, effektiv sahəvi təşkilatlanma, sektorun problemləri və inkişafı ilə bağlı digər məsələlər müzakirə edilib, kadrların hazırlanmasına, təlimlərin təşkilinə, sektor üzrə müəyyən güzəştlər, sərgilərə və reklama dəstəyin göstərilməsinə dair fikir və təkliflər səsləndirilib.

# Bənzərsiz ifası ilə ölməzlik qazanan sənətkar

## Xalq artisti Yalçın Rzazadənin xatirə axşamı

Fevralın 23-də R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında görkəmli müğənni, Xalq artisti Yalçın Rzazadəyə həsr olunan xatirə axşamı keçirildi.

Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova çıxış edərək sənətkarın həyat və sənət yolundan söz açdı. Bildirdi ki, Yalçın Rzazadə ötən il (22 fevral – red.) dünyasını dəyişsə də, onun ifa etdiyi nəğmələr tamaşaçıların qəlbində əbədi yaşayacaq: “Yalçın Rzazadənin özünəməxsus ifa tərzi onun həqiqi sənətkar olduğunun göstəricisidir. Azərbaycan musiqi sənətinin ən parlaq nümayəndələrindən olan Yalçın Rzazadə bir çox görkəmli bəstəkarlarımızın mahnılarının ilk və mahir ifaçısı kimi tanınıb. Cahangir Cahangirov, Emin Sabitoğlu, Tofiq Quliyev, Oqtay Kazımi, Eldar Mansurov kimi bəstəkarlar onun üçün mahnılar bəstələyiblər. “Qayınana”, “Dədə Qorqud”, “Baladadaşın ilk məhəbbəti”, “Gün keçdi” kimi filmlərimizə də Yalçın Rzazadə bənzərsiz ifası ilə ölməzlik bəxş edib”.



Sonra Dövlət Mahnı Teatrının ansamblı və solistləri sənətkarın repertuarında olmuş mahnılardan ibarət konsert proqramı ilə çıxış etdilər.

Proqram Xalq artisti Salman Qəmbərovun fortepianoda müşayiəti ilə Emin Sabitoğlunun “Bakı, sabahın xeyir” mahnısı ilə başlandı. Konsert boyu “Taleyim mənim”, “Gəl barışaq”, “Durnalar”, “Şirin dil”, “Ay Laçın” və digər mahnılar səsləndirildi.

Solistlər Rövşən Qəhrəmanov, Fəxri Kazım-Nicat və Aynur İsgəndərli, Mətin Rzazadə, Xalq artistləri Heydər Anatollu, Gülyaz və Gülyanaq Məmmədovalar, Əməkdar artist Aygün Qurbanova ifaları ilə ötən illərin nəğmələrinə yeni nəfəs verdilər.

Yalçın Rzazadənin övladları Mətin və Orxan Rzazadələr atalarının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlıqlarını ifadə etdilər.

Tədbirdə iştirak edən Əməkdar artist Nüşabə Ələsgərli sənətkarla bağlı xatirələrini media nümayəndələri ilə bölüşdü: “Yalçın Rzazadə ilə bizim tanışlığımız 90-cı illərə təsadüf edir. Biz bir yerdə konsert proqramlarında çıxış etmişdik. O, kübar, mədəni, ətrafındakılara sevgi ilə yanaşan bir insan idi. Tale elə gətirdi ki, Mədəniyyət və İncəsənət Universitetinə daxil olanda o, bizim kafedranın müdiri idi. Biz bir yerdə on il çalışdıq. İşinə məsuliyyətli, tələbələrə qarşı tələbkar bir insan kimi yadımda qalıb. Geyimindən tutmuş repertuar seçiminə qədər ondan kübarlıq yağırdı. Onunla bir səhnəni bölüşdüyüm üçün özümü şanslı hiss edirəm...”.

**L.Azəri**

# “Qar üzərindəki ayaq izləri ilə...”

## “Cadenza” orkestrinin Xocalı konserti



Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə fevralın 22-də Beynəlxalq Muğam Mərkəzində “Cadenza” orkestrinin konsert proqramı təqdim edildi.

“Koordinat 39°54’47” şm.e. 46°47’25” ş.u.; qar üzərindəki ayaq izləri ilə” adlı ədəbi-musiqili gecədə Aqşin Əlizadənin “Muğam”, Qara Qarayevin 14 və 24 nömrəli prelüdləri, Ayaz Qəmbərlinin “Hüzn”, Tahir İbişovun “Epitafiya”, Rəhilə Həsənovanın “Ulduzların laylası” və Üzeyir Hacıbəylinin “Cəngi” əsərləri səsləndi.

Konsertdən əvvəl musiqişünas Şəfaqət Məmmədova çıxış edərək layihənin konsepsiyası ilə bağlı fikirlərini bölüşdü. Bildirdi ki, əsərlərin seçimi Xocalı faciəsi baş verən o məşum gecənin musiqi ilə sanki portretini çəkir. A.Əlizadənin “Kənd süitası”ndan muğamla başlayan proqram hələ heç nədən xəbəri olmayan Xocalı sakinlərinin faciəyə addım-addım yaxınlaşmalarını, bu əsərin ardınca, səslənən əsərlər isə bütünlüklə Xocalı qətliamının musiqi ilə rənglərini nümayiş etdirir. Sonda səslənən “Cəngi” isə qələbə rəmzidir...

Konsert proqramı boyunca monitorda Xocalı faciəsindən lentə alınan kadrlar nümayiş olunurdu.

Ədəbi-musiqili gecənin konsertmeysteri Samir Əsədov, qiraətçi Cavid Baba, videoart müəllifi Elnur Mehdiyev idi.

Qeyd edək ki, səslənən əsərlərdən A.Əlizadənin “Muğam” əsəri bəstəkarın “Kənd süitası”ndan Mustafa Mehmandarov tərəfindən işlənib. Ü.Hacıbəylinin “Cəngi” əsərini orkestr üçün Ayaz Qəmbərli hazırlayıb. Q.Qarayevin 14 və 24 nömrəli prelüdlərini isə Səid Qəni işləyib.

Xatırladaq ki, 2016-cı ildən fəaliyyət göstərən “Cadenza” orkestri Azərbaycanda müasir musiqi ifaçılığı və ənənəsini yaşatmağı, çağdaş musiqi ənənələrini davam etdirməklə yanaşı, musiqi maarifçiliyini həyata keçirməyi, müxtəlif auditoriyalar üçün konsertlər təşkil etməyi qarşısına məqsəd qoyub.

Orkestrin bədii rəhbəri bəstəkar Türkər Qasımzadədir.

# BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlıq

Mədəniyyət naziri Anar Kərimovun BMT-nin Sivilizasiyalar Alyansının (BMTSA) ali nümayəndəsi Migel Angel Moratinos ilə onlayn formatda görüşü olub.

Görüşdə Azərbaycan və BMTSA arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb və davamlı əməkdaşlığın əhəmiyyətindən bəhs edilib. Bu kontekstdə 2021-ci il ərzində Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülmüş, BMTSA və İCESCO-nun birgə tərəfdaşlığı ilə həyata keçirilən “Mədəniyyət naminə sülh” qlobal kampaniyası (“Peace for Culture”) və bu kampaniyanın fəaliyyət planı layihəsinin hazırlanması barədə müzakirələr aparılıb.

# Mədəniyyətə töhfə verənlərin əməyi yeni mexanizmlə qiymətləndiriləcək

## Mədəniyyət naziri vətəndaşların onlayn qəbulunu keçirib

Mədəniyyət naziri Anar Kərimov fevralın 22-də videokonfrans formatında mədəniyyət sahəsində çalışan şəxslər, incəsənət xadimləri və digər vətəndaşların qəbulunu keçirib. Nazir onlayn görüşdə növbəlilik əsasında qəbula yazılmış şəxslərin müraciətlərini dinləyib, suallarını cavablandırıb.

Qəbulda səslənən müraciətlər müxtəlif mövzuları əhatə edib. O cümlədən yaradıcı əməyin təşviqi və qiymətləndirilməsi, fəxri ad və fərdi təqaüdlərin verilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, işlə təmin olunma, milli musiqi alətlərimizin tədqiq edilməsi, musiqi məktəblərinin fəaliyyəti, Aşıq Ələsgərin heykəlinin layihəsi və digər məsələlərə dair müraciətlər olub.

Anar Kərimov Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq Qələbədən sonra vətənpərvərlik ruhunda yeni musiqi əsərlərinə ehtiyac duyulduğunu bildirib. Bununla bağlı Mədəniyyət Nazirliyinin Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə layihələrinin olduğunu, müsabiqələrin keçirildiyini və gələcəkdə həmin bəstələrin nazirlik tərəfindən satın alınmasının nəzərdə tutulduğu diqqətə çatdırılıb.

Nazir həmçinin ölkəmizdə incəsənət xadimlərinin, Azərbaycan mədəniyyətinə töhfə verən şəxslərin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını söyləyib. Bildirib ki, gələcəkdə həmin şəxslərin peşəkar və yaradıcı fəaliyyətinin, zəhmətinin, mədəniyyət sahəsində xidmətlərinin qiymətləndirilməsinin ədalətli, şəffaf şəkildə və müstəqil bir komissiya vasitəsilə aparılması istiqamətində işlər həyata keçirilir. Tətbiq olunacaq yeni mexanizm sayəsində bu sahədə çalışan və mədəniyyətimizin inkişafında, təbliğində xidmətləri olan şəxslər layiqincə qiymətləndiriləcək.

Mədəniyyət və incəsənət xadimlərinin, vətəndaşların bütün müraciətləri dinlənildikdən sonra qaldırılan məsələlər müvafiq qaydada qeydə alınıb. Anar Kərimov qaldırılan məsələlərlə əlaqədar lazımi tədbirlərin görülməsi üçün aidiyyəti şöbələrə tapşırıqlar verib.

# Soyqırımının 30 illiyinə həsr olunmuş videokonfrans

Fevralın 24-də Milli Kitabxanada Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların iştirakı ilə Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə videokonfrans keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov tədbiri açaraq bildirib ki, Xocalı soyqırımı XX əsrin ən böyük faciəsi, insanlığa qarşı törədilmiş qətliamdır. Vurğulanıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük müharibədə torpaqlarımız düşmən tapdağından azad olunub və Xocalı sakinlərinin qisası alınıb.

Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova, Ağcabədi MKS-nin direktoru Məhəbbət Əliyeva, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, Sumqayıt MKS-nin direktoru Yeganə Əhmədova çıxış edərək Xocalı soyqırımına həsr edilmiş tədbirlərdən, eləcə də Milli Kitabxananın hazırladığı elektron məlumat bazaları və pandemiya zamanı oxuculara, bölgələrdəki kitabxanalara göstərdiyi xidmətin əhəmiyyətindən danışıblar.

Videokonfransda Azərbaycan Yazıçılar Birliyinin üzvü Səkinə Turabqızının “Xocalı ağrısı” (tarixi esselər) kitabının təqdimatı da olub. Müəllif kitab haqqında məlumat verib.

# “Xəyallarımın arxasında”

## Türkiyədə yaşayan soydaşımızın Xocalı sərgisi

Fevralın 24-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) Muzey-sərgi kompleksində tanınmış rəssam, Türkiyədə yaşayan və hazırda bu təhsil ocağında müəllim kimi çalışan Ədalət Qaranın (Adalet Kara) Xocalı soyqırımının 30 illiyinə həsr olunmuş “Xəyallarımın arxasında” adlı fərdi sərgisinin açılışı keçirildi.



Tədbirdə Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, ADRA-nın prorektoru, Xalq rəssamı Səlhab Məmmədov, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev çıxış edərək sərgi və müəllifin yaradıcılığı ilə bağlı düşüncələrini bölüşdülər.

Diqqətə çatdırıldı ki, rəssam çağdaş Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xəttə malik fırça ustalarından biridir. Onun əsərləri yerli və xarici ölkələrdə muzey və şəxsi kolleksiyaları bəzəyir.

Bildirildi ki, Adalet Kara Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra Ukraynada – Kiyev Rəssamlıq Akademiyasında və Lvov Milli İncəsənət Akademiyasında rəngkarlıq, keramika və heykəltəraşlıq üzrə təhsil alıb. 1979-cu ildə Lvov şəhərində keçirilən “Qırmızı payız” rəsm sərgisində baş mükafata layiq görülüb. 1995-ci ildə İsveçrədə keçirilən “Dünyanın 200 seçilən rəssamı” adlı sərgidə iştirak edib, adı dünya rəssamları kataloqunda yer alıb. 1996-cı ildə UNESCO Dünya Sənətkarlar Birliyinə üzv qəbul edilib. 1997-ci ildən Türkiyədə yaşayıb fəaliyyət göstərən rəssamın 2008-ci ildə Ayasofya Muzeyində “100 tablo” adlı sərgisi keçirilib.

Rəssam çıxış edərək sərginin təşkilinə və sənəti haqqında söylənilən dəyərli fikirlərə görə təşəkkürünü bildirdi.

Sonra qonaqlar sərgi ilə tanış oldular. Sərgidə rəssamın Xocalı mövzusunda 70 əsəri nümayiş olunur. Tablolar bu bəşəri faciənin mahiyyətini gələcək nəsillərə çatdırmaq baxımından qiymətli sənət nümunələridir.

**Lalə**

## Moldova Parlamentinin sədri Füzuli və Şuşaya səfər edib

Ölkəmizdə səfərdə olan Moldova Parlamentinin sədri İqor Qrosunun rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 23-də işğaldan azad olunmuş Füzuli və Şuşa şəhərlərinə səfər edib.




Qonaqları Milli Məclisin sədr müavini Adil Əliyev, Moldova ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sabir Hacıyev və digər şəxslər müşayiət ediblər.

Səfər zamanı nümayəndə heyətinə Füzulidə ermənilər tərəfindən törədilmiş dağıntılar, dini-mədəni abidələrin yerlə yeksan edilməsi, həmçinin torpaqlar işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-quruculuq layihələri barədə məlumat verilib.

Füzulidən sonra Şuşaya səfər edən qonaqlar əvvəlcə Şuşa qala divarları ilə tanış olublar. Onlara Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, işğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sonra moldovalı qonaqlar işğal zamanı vandalizmə məruz qalan və indi bərpa işləri aparılan Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, yenidən qurulan Molla Pənah Vaqifin məqbərəsini ziyarət ediblər, Cıdır düzündə olublar. Heyətin Şuşaya səfəri SSRİ Xalq artisti Bülbülün şəhərdəki ev-muzeyinin ziyarət olunması ilə yekunlaşıb. Muzeyin tarixi barədə qonaqlara məlumat verilib.

## "Yüksəliş"də iştirak etmək istəyənlər üçün



İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "Yüksəliş" müsabiqəsi işçi qrupunun görüşü keçirilib. Görüşdə İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov, idarə və müəssisələrin əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə müsabiqə üçün qeydiyyatdan keçmək istəyənlərə kömək göstərilib və sualları cavablandırılıb.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılması təmin etmək məqsədilə təsis olunub. Müsabiqə 21-51 yaş aralığında, ikiillik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan vətəndaşlarını əhatə edir. Müsabiqə qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və final mərhələlərindən ibarətdir.

## Mədəniyyət evləri və klubların fəaliyyəti müzakirə olunub



Şəmkir RMİ-nin rəisi Azər Rəcəbovun iştirakı ilə Göygöl rayon Mədəniyyət Mərkəzində və Gədəbəy Aşıq Məktəbində mədəniyyət evləri və klubların gələcək fəaliyyəti ilə əlaqədar iclaslar keçirilib.

İclaslarda RMİ-nin əhatə etdiyi rayonlardakı mədəniyyət evləri və klubların rəhbərləri iştirak ediblər. Müəssisə rəhbərləri problemlər barədə danışıb, fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı təkliflər veriblər.

İdarə rəisi müəssisələrin fəaliyyəti ilə bağlı bir sıra məsələləri diqqətə çatdırıb, işlərin daha səmərəli qurulması barədə tapşırıqlarını verib.

## Su çərşənbəsi ilə bağlı şənliklər



Gəncə RMİ və Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Kəlbəcər Mədəniyyət evində Novruzun ilk müjdəçisi – Su çərşənbəsi (22 fevral) ilə bağlı bayram şənliyi təşkil olunub.

Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

Əvvəlcə Gəncə Uşaq rəssamlıq məktəbi yetirmələrinin əl işlərindən ibarət sərgiyə baxış olub. Tədbirdə Su çərşənbəsinin mahiyyətindən, adətlərimizdən, inanclarımızdan bəhs edilib. Novruzun simaları olan Kosa, Keçəl və Bahar qızın çıxışları, maraqlı ifalar, rəngarəng rəqslər, əyləncə dolu səhnəciklər hər kəsin zövqünü oxşayıb.

Sonda ulu öndər Heydər Əliyevin Novruz bayramlarının birində məcburi köçkünlərlə görüşü zamanı, Prezident İlham Əliyevin isə ötən il Şuşada etdikləri tarixi çıxışlardan parçalar nümayiş olunub.

***

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində də Su çərşənbəsi qeyd olunub. Tədbirdə mədəniyyət işçiləri Novruz bayramının adət-ənənələri haqqında məlumat veriblər. Daha sonra məktəblilərin ifasında Su çərşənbəsinə aid şeirlər, atalar sözləri və bayatılar söylənilib, milli rəqslər, şən musiqilər ifa edilib.

**Hazırladı: N.Məmmədli**

## Xocalı soyqırımı – XX əsrin faciəsi

Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə bölgələrdə anım tədbirləri keçirilir.



Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı rayon Heydər Əliyev Mərkəzi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə Xocalı faciəsindən bəhs edən "Oğurlanmış talelər" mövzusunda ədəbi-bədii kompozisiya səhnələşdirilib. Tamaşanın ssenarisi yazıçı-publisist Nurəddin Ədiloğluna, quruluşu teatrın rejissoru Cəmaləddin Əliyevə məxsusdur. Masallı Tarix-Diyarşünaslıq Muzeyində isə məktəblilər üçün "Əsrin faciəsi" adlı tarix dərsi təşkil edilib.

Bərdə RMİ Bərdə rayon MKS-nin kitabxana filiallarında Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib.



Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində "Xocalı həqiqətləri" adlı sərgi təşkil edilib. Sərgidə erməni vandalizmini əks etdirən fotoşəkillər, xalqımıza qarşı törədilən cinayətlər və terror aktlarını əks etdirən kitablar sərgilənir. Şəki Heydər Əliyev Mərkəzi və MKS-nin 9 nömrəli filialının birgə təşkilatçılığı ilə "Xocalıya ədalət!" adlı tədbir təşkil olunub.

Qax Dövlət Rəsm Qalereyasında "Xocalı soyqırımı – qan yaddaşımız" adlı rəsm sərgisi açılıb. Sərgidə uşaq, yeniyetmə və gənc rəssamların 50-dək əsəri nümayiş etdirilir. Zaqatala rayon Heydər Əliyev Mərkəzində "Xocalı – şəhid şəhər" adlı rəsm və kitab sərgisi təşkil olunub.

Gəncə RMİ-nin tabeliyindəki T.Hacıyev adına 2 saylı Uşaq musiqi məktəbində "Xocalı qan yaddaşımızdır" adlı tədbir, Goranboy Dövlət Rəsm Qalereyasında isə "Xocalıya ədalət!" adlı rəsm sərgisi təşkil edilib.

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə rayon Mədəniyyət sarayının foyesində Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar məktəbli rəsm həvəskarlarının yağlı boya ilə çəkdikləri əsərlərin sərgisi açılıb. Sərgidə Xocalı soyqırımını əks etdirən 60 rəsm əsəri nümayiş olunur.

Şəmkir RMİ Şəmkir Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə şagirdlərin hazırladıqları "Xocalıya gedən yol" mövzusunda kompozisiya və Xocalı faciəsindən bəhs edən film nümayiş etdirilib.



Kürdəmir RMİ Kürdəmir rayon Heydər Əliyev Mərkəzində "Xocalı soyqırımı – XX əsrin faciəsi" adlı tədbir keçirilib. Kürdəmir Dövlət Rəsm Qalereyasında isə faciənin 30-cu ildönümü ilə bağlı həvəskar rəssamların və məktəblilərin əl işlərindən ibarət sərgi təşkil edilib.

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Xocalı bir millətin kədəri" adlı film təqdimatı keçirilib. Tədbirdə mərkəzin direktoru Rəna Hacızadə və digərləri çıxış edərək Xocalı soyqırımı haqqında fikirlərini bölüşüblər.

Sumqayıt RMİ Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "Xocalı ağrısından gələcəyə doğru" adlı tədbir keçirilib. N.Nərimanov adına Mədəniyyət Mərkəzi və "Dostluq" mədəniyyət evi ilə birgə təşkil olunan tədbirdə dərnək üzvləri Əli Hüseynov və Aydan Salahovanın ifaları dinlənilib.

C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzi, Giləzi qəsəbə Folklor klubu, Şorabad qəsəbə Sənətkarlıq evi və Yeni Yaşma kənd klubunun birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı – unudulmaz faciə" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.



Ağdaş RMİ Zərdab rayon Mərkəzi Kitabxanası və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən "Xocalı – bəşəriyyətə qarşı tarixi cinayət" adlı anım tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılmış "Xocalıya ədalət!" kampaniyası haqqında söz açılıb.

Ağcabədi RMİ Ağdam rayon Heydər Əliyev Mərkəzinin və Ağdam rayon Ayaq Qərvənd kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə keçirilən "Xocalını unutmayaq!" adlı tədbirdə faciə haqqında məlumat verilib, erməni silahlılarının günahsız insanların başına gətirdikləri müsibətlərdən bəhs edilib.

Biləsuvar RMİ Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Soyqırımı" rəsm, Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyasında isə "Xocalı faciəsi xalqımızın qan yaddaşıdır" başlığı altında kitab sərgiləri təşkil edilib.



Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında "Əsrin faciəsi – Xocalı" adlı sərgi təşkil olunub. Sərgidə oxucular Xocalı faciəsi haqqında kitablar və qəzet materialları ilə tanış olublar.

Lənkəran RMİ Lənkəran şəhər MKS-nin Uşaq şöbəsində "Xocalı soyqırımını unutmayaq!" adlı tədbir keçirilib. Tədbirdə Lənkəran şəhər 7 və 10 saylı orta məktəblərin şagirdləri Vətən haqqında şeirlər səsləndiriblər. Sonra Xocalı faciəsini özündə əks etdirən fotostendə və kitablara baxış olub.

## Vətənin fəxr etdiyi oğullar



Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Mərkəzi Uşaq Kitabxanası və 5 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Vətən müharibəsinin sumqayıtlı şəhidləri Əlizamin Mustafalı, Elvin Novruzov, Əlimərdan Quluzadə və Kərim Əhmədəliyevin anaları ilə "Şərəf abidəsi – şəhid anası" adlı görüş keçirilib. Sumqayıt şəhər Heydər Əliyev Mərkəzinin kollektivi Vətən müharibəsi şəhidi Şəhriyar Quliyevin ailəsini ziyarət edib.

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Masallı Dövlət Rəsm Qalereyası və "Ümidim sənsən" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Vətənin ölməz oğulları" layihəsi üzrə növbəti tədbir gerçəkləşib. Tədbirdə fevral ayında doğulmuş Birinci Qarabağ və Vətən müharibəsi şəhidləri barədə məlumat verilib. İştirakçılar muzeydə şəhidlərə həsr olunmuş guşə ilə tanış olublar.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Şuşa fatehləri" adlı layihənin Vətən Müharibəsi Qəhrəmanı Ramiz Cəfərova həsr olunan ilk tədbiri keçirilib. Mərkəzin direktoru vəzifəsini icra edən Zeynəb Məmmədzadə şəhid Ramiz Cəfərovun həyat və döyüş yolu haqqında söz açıb. Qəhrəmana həsr olunmuş sənədli film nümayiş olunub.

Masallı RMİ Yardımlı Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidi Ruslan Cəfərlinin atası Nəcəf Cəfərovla görüş keçirilib. Görüşdə N.Cəfərov oğlunun Vətən sevgisi və döyüş yolundan bəhs edib.



Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzinin Dayıkənd Mədəniyyət evində Birinci Qarabağ müharibəsi şəhidi Arif Nağıyevin anım günü qeyd olunub.

Şəki RMİ Qax rayon 2 saylı şəhər kitabxana filialı və 1 nömrəli Mədəniyyət evinin təşkilatçılığı ilə doğum günləri fevral ayında olan Milli Qəhrəmanlar haqqında "Fərqli talelərin oxşar zirvəsi" adlı tədbir təşkil edilib. Tədbirdə Milli Qəhrəmanlar Akif Əkbərov, Ərəstun Mahmudov, Rövşən Hüseynov, Firudin Şamoyev, İnqilab İsmayılov və Elman Hüseynovun döyüş yolu haqqında iştirakçılara məlumat verilib.

## "Şuşa – ənənədən gələcəyə"

### Bakı Milli Geyim Evi dəfilə-sərgi keçirəcək




Bakı Milli Geyim Evi növbəti təqdimatını Şuşaya həsr edəcək. 8 Mart – Beynəlxalq Qadınlar Günü və Novruz bayramı ərəfəsində "Şuşa – ənənədən gələcəyə" adlı dəfilə-sərgi keçiriləcək.

Bakı Milli Geyim Evinin rəhbəri Könül Vəlibəyli media mənsubları ilə görüşdə bu barədə ətraflı məlumat verdi. Tədbirdə Qarabağ geyimləri, onun məişətinin ayrılmaz hissəsi olan elementlər ictimaiyyətə təqdim olundu.

Könül Vəlibəyli 14 ili əhatə edən fəaliyyətləri, qarşıdakı layihələr barədə də söz açdı. Bildirdi ki, Bakı Milli Geyim Evi Azərbaycanın milli-mənəvi dəyəri olan geyimlərimizin hazırlanmasında, dünyada tanıdılmasında və təbliğində önəmli rola sahibdir: "Müxtəlif ölkələrdə Azərbaycanı təmsil edən qurumlar və səfirliklərlə əməkdaşlıq sayəsində sərgilər keçirmişik. Həmçinin, istər ölkə daxilində, istərsə də xaricdə bir neçə dəfə Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə müxtəlif dövlət tədbirləri, eləcə də rəqs və mahnı ansamblları-mız, teatrlarımız üçün milli geyimlər hazırlamışıq. Bu gün Bakı Milli Geyim Evinin hazırladığı libaslar ölkə və dünya muzeylərində sərgilənir...".

Vurğulandı ki, yarandığı gündən Bakı Milli Geyim Evinin kolleksiyasında önəmli yer tutan dəstlərdən biri də Şuşa-Qarabağ geyimləridir: "Kollektiv olaraq 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində qazanılmış böyük Zəfərimizə, eləcə də Prezident İlham Əliyev tərəfindən elan olunmuş "Şuşa İli"nə ithaf olaraq Qarabağ və Şuşaya aid geyimləri, araqçınları da hazırlayırıq...".

**H.Rüstəmova**

## Cənub bölgəsinin sənətkarları ilə görüş

Lənkəran RMİ-nin təşkilatçılığı ilə ölkəmizin cənub bölgəsində fəaliyyət göstərən sənətkarların bir qrupu ilə görüş keçirilib. Tədbirdə Astara, Lənkəran və Lerik rayonlarının həsirçilik, xalçaçılıq, keramika, heykəltəraşlıq, dəmirçilik, dulusçuluq, miniatür xalçaçılıq, taxta oyma sənəti və digər sahələri təmsil edən 40-dan çox sənətkar iştirak edib.



İdarənin rəisi Şahin Şahbazov çıxış edərək görüşü təşkil etməkdə əsas məqsədin cənub bölgəsində sənətkarlıq sahələrinin inkişafına dəstək olmaq, müntəzəm olaraq sərgilər keçirmək, bu sahədə təbliğatı genişləndirmək və sənətkarlıq nümunələrinin ölkə daxilində satışına kömək göstərmək olduğunu söyləyib. Bildirilib ki, bu istiqamətdə araşdırmalar aparılıb və cənub regionunda fəaliyyət göstərən sənətkarların elektron məlumat bazası yaradılıb. Qarşıdakı aylarda bölgədə sərgi-yarmarka təşkil ediləcək və hər bir sənətkara öz əl işlərini, sənətkarlıq nümunələrini nümayiş etdirməyə şərait yaradılacaq.

Görüşdə sənətkarları maraqlandıran suallar cavablandırılıb, onların əl işlərinə baxış keçirilib.

# Otuz yaşlı dərdin səhnə təcəssümü

əvvəli səh. 1-də

Akademik Opera və Balet Teatrı fevralın 25-də "Böyüməyən uşaqlar" adlı tamaşanın nümayişinə ev sahibliyi edəcək. Tamaşa Elşad Eyvazlının eyniadlı kitabının motivləri əsasında Ukraynanın "Qara kvadrat" improvizasiya teatrı tərəfindən hazırlanıb. Layihə Ukrayna Azərbaycanlıları Radasının, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun təşəbbüsü, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ərsəyə gəlib. Qeyd edək ki, Xocalı soyqırımı nəticəsində hər iki valideynini itirmiş 25 uşağın faciəsinə həsr olunmuş tamaşa ilk dəfə 2019-cu ildə Kiyevdəki "Bravo" teatrında səhnəyə qoyulub və maraqla qarşılanıb.








Akademik Milli Dram Teatrı fevralın 26-da cari repertuardan "Qarabağnamə" tamaşasını təqdim edəcək. Uzun illərdir teatrın repertuarında olan tamaşa Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında səhnələşdirilib. Tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında isə "Bir nəfəs qədər" tamaşası nümayiş olunacaq. Qürur mənbəyimiz olan şəhidlərə, qazilərə və onların bizə bəxş etdiyi Zəfərin simasına çevrilən analarımıza həsr olunan tamaşa teatrın rejissoru Samir Qulamovun pyesi əsasında və müəllifin öz quruluşunda hazırlanıb.

Akademik Rus Dram Teatrının səhnəsində fevralın 25-də "Mənim savaşım" adlı monotamaşa nümayiş olunacaq. Müharibə və onun ağrıları bir qadının xronikal oyun-təqdimatında tamaşaçı ilə görüşəcək. Səhnə əsərinin müəllif-ifaçısı Xalq artisti Aleksandra Nikuşinadır. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Vladimir Neverov, rəssamları Əməkdar mədəniyyət işçiləri Olqa Abbasova və Aleksandr Fyodorovdur.

Şuşa Dövlət Musiqili Dram Teatrı isə fevralın 26-da "Xocalım, biz qayıdırıq!" adlı ədəbi-bədii kompozisiya təqdim edəcək. Kompozisiyanın quruluşçu rejissoru Lalə Şirinova, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Ağasəlim Feyzullayevdir. Kompozisiyada Xalq şairi Zəlimxan Yaqub, şairlər Zərangiz Mansurova və Nazir Rüstəmin şeirlərindən, Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Hacı Xanməmmədovun, Polad Bülbüloğlunun, Faiq Sücəddinovun əsərləri, eləcə də Azərbaycan xalq musiqisindən, videomateriallardan istifadə olunub.

Dövlət Gənc Tamaşaçılar Teatrının yaradıcı heyəti Xocalı faciəsinin ildönümünü ən yeni tariximizin şanlı səhifələrindən biri – 2016-cı il Aprel döyüşlərinin şəhidlərinə ithaf olan "Yarımçıq qalmış" tamaşası ilə yad edəcək. Tamaşa fevralın 26-da Teatr Xadimləri İttifaqının səhnəsində nümayiş olunacaq.

Azərbaycan Dövlət Pantomima Teatrı Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar repertuarından ən baxımlı əsərlərdən birini – Xalq artisti Bəxtiyar Xanızadənin "Xocalı bu olub" tamaşasını bu dəfə Mədəniyyət Nazirliyinin dəstəyi və Polşadakı səfirliyimizin dəvəti ilə Varşavaya aparıb. Tamaşa Polşa paytaxtında fevralın 24-də nümayiş olunub.

Sumqayıt Dövlət Dram Teatrı isə Xocalı qurbanlarını "Missiya" ilə yad edəcək. Birinci və İkinci Qarabağ savaşlarından bəhs edən qəhrəmanlıq dramının müəllifi Hafiz Ataxanlı, quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Elşən Sərxanoğludur.

Bölgə teatrlarına gəlincə isə, bəziləri ədəbi-bədii kompozisiyalar, repertuarlarındakı vətənpərvərlik ideyalı tamaşalarla teatrsevərlərə xitab edəcəklər. Qusar Dövlət Ləzgi Dram Teatrında "Xocalı harayı – 30" adlı bədii kompozisiya hazırlanıb, Mingəçevir Dövlət Dram Teatrı isə Sevinc Elsevərin "Ürəyində arzu tut" pyesinin tamaşası ilə sənətsevərlərin görüşünə gələcək...

**H.Nizamiqızı**

# Animasiya sahəsində nə var – nə yox?




2021-ci ili Azərbaycan animasiyası üçün ən uğurlu il adlandırmaq olar. Filmlərin və animasiya studiyalarının sayı çoxalmaqla yanaşı, beynəlxalq film festivallarında iştirak edən animasiya filmlərimiz də xeyli artıb.

Bu fikirlər "Animafilm" Beynəlxalq Animasiya Festivalının direktoru, rejissor Rəşid Ağamalıyevin festivalın sosial şəbəkə səhifəsində yayımlanan "2021-ci ildə Azərbaycan animasiyası" adlı illik hesabatında yer alıb.

Bildirilir ki, ötən il filmlərin və animasiya studiyalarının sayı çoxalmaqla yanaşı, beynəlxalq festivallarda iştirak edən nümunələr xeyli artıb.

"Azanfilm" animasiya studiyası tərəfindən ötən il "Tıq-tıqla möcüzələr axtarışında – Qobustan" (ssenari müəllifi və rejissor Sultan Abbasbəyli) filmi istehsal edilib. Studiyanın növbəti filmi olan "Oğurlanmış bahar"ın (rejissor Aleksandra Şirinova) 2022-ci ildə təhvil verilməsi planlaşdırılır.

Rejissor və prodüser Firəngiz Qurbanovanın rəhbərlik etdiyi "Birlik" animasiya studiyası Azərbaycan Kinematoqrafçılar İttifaqı ilə birlikdə "Sərçə" (rejissor Gülnar Əliyeva) diplom işini çəkib. Studiyanın "Qarabağ nağılı" layihəsi isə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "Böyük qayıdış" müsabiqəsinin qalibi olub. Müsabiqənin şərtlərinə görə, animasiya filmi Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə çəkilir. Onu da qeyd edək ki, film "Mənə nağıl söylə" adlı serialın ikinci seriyasıdır. Animasiya filminin birinci seriyası olan "Araqçın" 2020-ci ildə çəkilib və festivallarda uğurlu nəticələr əldə edib. 2020-ci ildə "Harmony of Chaos" studiyası tərəfindən ərsəyə gələn "Evə qayıdış" animasiya çarxı da (prodüser və rejissor Ağarəhim İbrahimov) internetdə böyük əks-səda yaradıb, dəfələrlə televiziyalarda, kinoteatrlarda nümayiş etdirilib.






Mədəniyyət Nazirliyinin "Böyük qayıdış" müsabiqəsinin qalibi olan və "OB Film" studiyasının təqdim etdiyi "Tarix" layihəsinin (rejissor Ceyhun Türksoy) çəkilişləri davam edir.

"Perifilm" studiyası uşaqlar üçün "Sara, hara?" (rejissor və prodüser Vəfa Əli) serialının iki seriyası, habelə Həsən Pastacının rejissorluğu ilə IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı üçün treyler çəkib. Studiyanın "Toxum" layihəsi (ssenari müəllifi və rejissoru Şamil Nəcəfzadə) də "Böyük qayıdış" müsabiqəsində iştirak edib. "Perifilm" eyni zamanda "Animafilm" Beynəlxalq Animasiya Festivalı və animasiya kursları təşkil edir.

***

Hesabatda həmçinin "Azanfilm", "Birlik" və digər studiyaların filmlərinin festivallarda iştirakı ilə bağlı məqamlar da əksini tapıb. "Birlik" studiyasının "Araqçın" filmi (rejissor Firəngiz Qurbanova) IV "Animafilm" festivalında "Ən yaxşı qısametrajlı Azərbaycan animasiya filmi" nominasiyasında qalib gəlib. Film həmçinin 2021-ci ildə Moskvada keçirilən XXVI "Radonej" Beynəlxalq Film Festivalında münsiflər heyətinin diplomuna layiq görülüb.

Ötən il "Animafilm" festivalının təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə azərbaycanlı iştirakçılar Tbilisidə keçirilən "Animated Film Project Pitching"də vorkşopa qatılıblar. Firəngiz Bağırova və Leyli Salayevanın "Son lələk" layihəsi baş mükafatı qazanaraq bu il Fransanın Fonrevro şəhərində keçiriləcək aylıq vorkşopda iştirak hüququ əldə edib.

***

Animasiya sahəsi üzrə təhsildə də müəyyən irəliləyişlərin əldə edildiyi hesabatda qeyd olunur. Bildirilir ki, 2021-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Rəssamlıq fakültəsi nəzdində animasiya və kompüter qrafikası ixtisası açılıb.

"Animafilm" festivalı nəzdində fəaliyyət göstərən "Animafilm School" 2021-ci ildə davamlı animasiya kursları və ustad dərsləri təşkil edib. Festival çərçivəsində tanınmış animasiya rejissoru Məsud Pənahi, səs rejissorları Nancy Denney-Phelps və Nik Phelps (Belçika), prodüserlər Olivier Catherin (Fransa) ustad dərsləri keçib.

Ötən il eyni zamanda Azərbaycan Dövlət Rəsm Qalereyasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirdiyi "Digitalart-lab" layihəsi çərçivəsində animasiyanın müxtəlif sahələri üzrə ustad dərsləri təşkil olunub.

**Lalə Azəri**

# "Qarınqulu ayı"nın axtarışında

Şənbə günümün bir hissəsini paytaxtın mərkəzindən nisbətən kənarda – Qaraçuxur qəsəbəsində keçirdim. Səbəbi isə qəsəbədəki Qurban Abbasov adına Mədəniyyət evində müvəqqəti məskunlaşan Bakı Uşaq və Gənclər Teatrının yeni tamaşasına baxmaq idi.



Mədəniyyət evinə isə tamaşaçıların, avtobusda yol yoldaşım olan uşaqların müşayiətində getdim. Sevinən balacalar bir-birilərinə "təzə teatrdı (yəni tamaşadır) xəbərini verir, "Yeni ildə gəlmişdim, nə qədər güldüm", "o döyül, təzəsidi, yalan danışma" kimi didişmələri edirdilər. Yəqin bununla kimin daha çox teatral olduğunu göstərmək istəyirdilər.

Mübahisəyə aralarındakı nisbətən qıvraq sarışın oğlanın ucadan "Eh, Kərim, deyirəm, görəsən, yenə hədiyyə verəcəklər?" sualı son qoydu. Dostlarının onun hədiyyə arzularını gülüşləri ilə puç etməsi Kərimin kefini pozdu, üzünü pəncərəyə tutub mısmırığını salladı. Nəhayət, arxa oturacaqdakı qadın (müəllimələri) səs-səsə verən uşaqların eşidəcəyi səslə "Çatdıq, tökülün aşağı" əmrini verdi.

Teatra gedən yolun sağındakı parka can atan uşaqlardan birinin israrına "Teatra gedirik, park həmişə var" cavabını verən müəllimə binanın girişinə çatan kimi yenidən uca səslə uşaqları sayıb sıra ilə içəri ötürdü.

Mənzərə ürəkaçandır, premyeranın sorağı ilə xeyli uşaq gəlib. Zala daha tez daxil olub, səhnəyə daha yaxın sırada oturmaq üçün ərköyünlük edən balaca teatrsevər uşaqları izləmək maraqlı idi. Deməli, teatra maraq var, sadəcə, onu təşviq etmək lazımdır. Təbii ki, konkret olaraq Bakı Uşaq və Gənclər Teatrına gəlincə, teatrın bədii rəhbəri və direktoru, Əməkdar artist İntiqam Soltanın bu istiqamətdə səyləri və əziyyətini də xüsusi qeyd etməliyik.

...Uşaqların yolboyu və foyedəki həyəcanı zala da daşındı və İntiqam Soltanlının səhnəyə çıxması ilə daha da qızışdı. Onun maraqlı, əyləncəli və bir az da maarifləndirici suallarına qışqıra-qışqıra cavab verən balacalar (bəzilərinin valideynləri də onlardan az canfəşanlıq etmirdi) tamaşanın başlanması ilə sakitləşdilər.

Pərdələr açıldı və səhnənin ortasındakı çarpayıda xoruldayan Ayının macəraları başlandı.

Müxtəlif mövzulu nağıllar yazan Vüqar Haqverdiyevin əsəri əsasında aşağı yaş qrupu (4-9) uşaqlar üçün hazırlanmış "Qarınqulu ayı"nın əsas ideyası dostluq, dürüstlük, səmimiyyət və qayğıkeşlikdir.

Anasının evdə olmamağını fürsət bilib soyuducuda olan bütün dondurmaları yeyən ayı balasının boğazı ağrıyır. Tez sağalması və anasının bundan xəbər tutmaması üçün köməyə dostları ilan, tısbağa və dovşanı çağırır. Hərəsi də ona bir tövsiyə edirlər. Sonda həkim çağırmağa qərar verirlər və dostlarını sağaldırlar.

Uşaqlara valideynləri dinləməyi, səmimi dost olmağı, təbiəti qorumağı, heyvanları sevməyi öyrədən birhissəli tamaşa rəngarəng səhnə tərtibatı, ritmik musiqisi ilə də diqqəti cəlb edə bildi.

Məlumat üçün deyim ki, tamaşanın rejissoru Əməkdar artist İntiqam Soltan, rəssamı Sevda Məmmədova, bəstəkarı Yusif Rüstəmovdur. Rolları Sənan Fərzəliyev, Qurban Əhmədov, Könül Şahbazova, Türkan Şahmarlı, Gülnar Əlizadə, Aytən Səfərova, Niyaz Novruzov, Röyal Allahverdiyev, Toğrul İsabəyli, Emin Balayev və Orxan Məmmədov ifa edirlər.

**Həmidə**

# "Vətənimizin gözəl mənzərələrini çəkməyi sevirəm"

Bu günlərdə Sumqayıt şəhərindəki Poeziya evində təşkil olunan "Şuşa, sən azadsan!" adlı əl işləri sərgisində "Tarixi Zəfərimiz" başlığı altında nümayiş olunan rəsmlər xüsusilə diqqətimi çəkmişdi. Guşədə rəssam İntiqam Cəfərovun əl işləri sərgilənirdi. Rəssamla həmsöhbət olub yaradıcılıq yolu və planları ilə maraqlandım.

İntiqam Şahvələd oğlu Cəfərov 1986-cı ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. Sumqayıt şəhərində Qubadlı rayon M.Ağayarov adına Kavdadıq kənd köçkün orta məktəbini bitirib. 2009-cu ildə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasından məzun olub. Suluboya texnikası üzrə işlədiyi əsərlər 2012-2013-cü illərdə Türkiyədə Beynəlxalq Suluboya Cəmiyyətinin (İWS Globe) və İstanbul Suluboya Cəmiyyətinin dərc etdiyi kataloqlarda yer alıb. 2013-cü ildə Çində təşkil edilmiş Şenjen suluboya müsabiqəsində 54 ölkədən rəssamlar arasında İntiqam Cəfərovun "Balaca aktrisa" əsəri jüri tərəfindən seçilib. O, Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

*– Rəssamlığa marağınız necə yarandı?*

– 10-11 yaşlarımda orta məktəbdə oxuduğum zaman rəsm çəkməyə başlamışam. Məktəbin direktoru Tahir müəllim rəssamlığa həvəsimi hiss etdi və valideynlərimin razılığı ilə məni Sumqayıt şəhər Uşaq və yeniyetmələrin yaradıcılıq mərkəzinə yazdırdı. İlk dəfə ədəbiyyat kitabındakı şair və yazıçıların rəsmlərini çəkmişəm.

*– Yaradıcılığınızda hansı mövzulu əsərlər üstünlük təşkil edir?*

– Düşünürəm ki, peşəkar rəssamlıqla məşğul olan insan hər mövzuya müraciət etməlidir. Amma ən çox portret və mənzərə janrına üstünlük verirəm. Yaşlı və uşaq portretləri, Vətənimizin gözəl mənzərələrini çəkməyi sevirəm.

*– İlk fərdi sərginiz nə vaxt olub? Hansı beynəlxalq sərgilərdə iştirak etmisiniz?*

– 2012-ci ildə İçərişəhərdə fərdi sərgim açıldı. Sərgidə 30-a yaxın əl işim nümayiş olunmuşdu. Yeri gəlmişkən qeyd edim ki, mən kino sahəsində də fəaliyyət göstərmişəm. 2012-2014-cü illərdə "Mahmud və Məryəm", "İçərişəhər" filmlərinin rekvizit üzrə rəssamı olmuşam. Həmçinin "Mahmud və Məryəm" filmində kiçik bir obrazı canlandırmışam.

Bir çox beynəlxalq sərgilərin iştirakçısı və laureatı olmuşam. 2012-ci ildə İzmir şəhərində Beynəlxalq Suluboya Cəmiyyətinin təşkil etdiyi "Barış yolu ilə sənət" mövzulu festivalda "Əlaqə" adlı əl işim birinci yerə layiq görüldü. 2016 və 2020-ci illərdə Pakistanda keçirilən beynəlxalq suluboya festivalında əl işlərim sərgiləndi. Ümumiyyətlə, Türkiyə, Rusiya, Pakistan, Hindistan, Norveç, Çin və digər ölkələrdə əsərlərim nümayiş etdirilib. Yerli sərgilərin də mükafatçısı olmuşam. 2020-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Azərbaycanın xilaskarı" adlı rəsm müsabiqəsində 2-ci yerə layiq görülmüşəm. Həmin il Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası, Beynəlxalq Suluboya Cəmiyyətinin Azərbaycan nümayəndəliyi (İWS Azerbaijan) və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Xəzərin dalğaları" adlı I Bakı Beynəlxalq Suluboya Festivalında əsərim ilk onluğa düşdü. 2021-ci ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Vətənpərvərlik etüdləri" layihəsi çərçivəsində "Ağdamın mənzərələri" adlı etüd-sərgidə diploma layiq görülmüşəm. Əl işimi gələcəkdə inşa olunacaq Ağdam muzeyi üçün hədiyyə etdim. 2021-ci ildə həmçinin Bakıda keçirilən "XXI əsrin sərkərdəsi – İlham Əliyev. Qarabağ Zəfəri" adlı sərgidə uğurlu iştirakıma görə sertifikata layiq görüldüm.



*– Yerli və xarici rəssamlardan kimlərin yaradıcılığını örnək alırsınız?*

– Bütün rəssamların olduğu kimi, mənim də izlədiyim və örnək aldığım rəssamlar var. Buna misal olaraq dünya şöhrətli holland rəssamı Rembrandtı göstərə bilərəm. Onu da qeyd edim ki, incəsənətə işıq və kölgə terminini ilk olaraq məhz Rembrandt gətirib. Bundan başqa, Azərbaycanın Xalq rəssamları Tahir Salahov və Böyükağa Mirzəzadəni qeyd edə bilərəm. Zaman-zaman bu görkəmli rəssamların əsərləri ilə daha yaxından tanış olmuşam və onların yaradıcılıqlarından bəhrələnərək incəsənətə öz yolumu tapmışam. Ola bilsin ki, yaradıcılığımda portret və mənzərə janrına üstünlük verməyim də bununla əlaqədardır.

*– Elm və texnikanın inkişafı, sizcə, incəsənətə nə dərəcədə təsir göstərir?*

– Düşünürəm ki, elm və texnikanın inkişafı digər sahələrə olduğu kimi, incəsənətə də öz müsbət təsirini göstərir. Artıq sosial şəbəkələrdə çox sayda onlayn sərgilər təşkil olunur, bu da öz növbəsində incəsənətə olan marağın daha da artmasına səbəb olur. Onlayn şəkildə təşkil olunan beynəlxalq sərgilərdə bir çox ölkələrdən rəssamlar iştirak edir və burada çox gözəl sənət və fikir mübadiləsi aparılır, rəssamlar bir-birinin əsərləri ilə tanış olur və dünyagörüşlərini daha da artırırlar. Bu tip sərgilər rəssamlara yeni əsərlər yaratmağa da stimul verir.

*– Nə kimi yaradıcılıq planlarınız var?*

– Gələcəklə bağlı plan və ümidlərim çoxdur. Bu il növbəti fərdi sərgimi keçirməyi düşünürəm. Fərdi sərgi bütün rəssamlar kimi mənim də ən öndə olan arzularımdan biridir. Çünki rəssam nə qədər çox sərgilərdə iştirak edərsə, əsərləri tamaşaçılar və digər rəssamlar tərəfindən bir o qədər çox tanınar və sevilər. Həmçinin bu ilin may ayında İzmir şəhərində keçiriləcək "Qızıl fırça" ("Golden Brush") beynəlxalq suluboya festivalına dəvət almışam.

**Nurəddin Məmmədli**

№16 (1889)
25 fevral 2022
www.medeniyyet.az

# Xalq artisti Kamil Cəlilov vəfat edib

Azərbaycanın mədəniyyət ictimaiyyətinə ağır itki üz verib. Tanınmış qoboy ifaçısı, Xalq artisti, "Şərəf" və "Şöhrət" ordenli Kamil Cəlil oğlu Cəlilov fevralın 23-də, ömrünün 84-cü ilində vəfat edib.



Kamil Cəlilov 29 yanvar 1938-ci ildə Bakı şəhərində anadan olub. O, Azərbaycan milli ifaçılıq məktəbinin istedadlı nümayəndəsi, özünəməxsus üslubu ilə fərqlənən mahir qoboy ifaçısı olub.

Azərbaycan Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası) bitirdikdən sonra əmək fəaliyyətinə başlayan sənətçi istedadı və zəhmətsevərliyi sayəsində xalq musiqi incilərini dərindən öyrənib və 40 il ərzində öz ifaçılıq məharəti ilə milli musiqimizi zənginləşdirib.

İstedadlı musiqiçi 1968-ci ildən başlayaraq uzun illər görkəmli pianoçu, Əməkdar incəsənət xadimi Gülarə Əliyevanın yaratdığı "Dan ulduzu" ansamblının solisti olub. Kamil Cəlilov bu kollektivlə birgə Almaniya, Avstriya, Türkiyə, Hindistan, İordaniya, Əlcəzair, Mərakeş, Norveç, İran, İsrail və digər ölkələrdə milli musiqi sənətimizi təmsil və təbliğ edib.

Uzun illər İncəsənət Gimnaziyasında pedaqoji fəaliyyətlə də məşğul olan Kamil Cəlilov milli ifaçılıq məktəbinin yüksək ənənələri əsasında səy və bacarığını gənc ifaçıların yetişdirilməsinə sərf edib.

Kamil Cəlilov milli mədəniyyətimizin inkişafında xidmətlərinə görə dövlət tərəfindən daim diqqət və qayğı ilə əhatə olunub, Əməkdar artist, "Xalq artisti" fəxri adlarına, Prezident təqaüdünə layiq görülüb. 2013-cü ildə "Şöhrət", 2018-ci ildə "Şərəf" ordenləri ilə təltif olunub.

Kamil Cəlilovun əziz xatirəsi sənətsevərlərin, həmkarlarının və doğmalarının qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

***



Xalq artisti Kamil Cəlilov fevralın 23-də Bakıda, II Fəxri xiyabanda dəfn olunub. Vida mərasimində mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov mərhumun ailəsinə, yaxınlarına və sənət dostlarına nazirlik adından başsağlığı verib.

Sənətkarın məzarı üzərinə Mədəniyyət Nazirliyi adından əklil qoyulub.

# İstiqlal Muzeyində sərgilər

## "Cinayətin cəzası" və "Xocalı dünyanın gözü ilə"

Fevralın 22-də Azərbaycan İstiqlal Muzeyində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş "Cinayətin cəzası" adlı sərgi açılıb. Sərgidə Xalq rəssamı Xanlar Əhmədovun muzeyə hədiyyə etdiyi 18 əsər nümayiş olunur.





Tədbirdə çıxış edənlər rəssamın bu addımını mədəniyyət xeyriyyəçiliyi kimi yüksək qiymətləndiriblər. Xanlar Əhmədova Mədəniyyət Nazirliyinin fəxri fərmanı təqdim edilib.

Çıxışlarda vurğulanıb ki, bəşəriyyətə qarşı amansız bir cinayət olan Xocalı soyqırımı, bu faciənin bütün ağrı-acısına rəğmən, artıq ikinci ildir ki, xalqımız tərəfindən nisbətən fərqli əhvalda yad edilir. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu otuzillik işğala son qoyaraq, eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda canlarını qurban verən bütün şəhidlərimizin qisasını döyüş meydanında aldı.

Bu gün biz Xocalı qurbanlarının xatirəsini yad edərkən daxilən inanırıq ki, bütün şəhidlərimiz kimi, onların da ruhu artıq şaddır.

İstiqlal Muzeyində "Cinayətin cəzası" adlı sərgi martın 1-dək davam edəcək.

***

İstiqlal Muzeyində Xocalı soyqırımının 30-cu ildönümü münasibətilə daha bir sərgi fevralın 23-də təşkil edilib.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti ilə birgə təşkil edilən "Xocalı dünyanın gözü ilə" adlı səyyar sərgidə xarici fotoqrafların çəkdiyi, muzeyin fondlarında saxlanılan fotolar nümayiş olunub. Fotolarda müxtəlif ölkələrdə Xocalı soyqırımı ilə bağlı keçirilmiş anım tədbirləri də əksini tapıb.

Dövlət Miqrasiya Xidmətinin əməkdaşları sərgi ilə tanış olublar.

# Xatirələrdəki əbədi ad

Şəhidlər, Vətəni uğrunda canından keçənlər hər birimizin and yeri, ehtiram ünvanıdır. Bu, sadəcə, söz, təsirli ibarə deyil və zaman ötdükcə – havadan barıt qoxusu, divarlardan mərmi izləri, torpaqdan gənc ömürlərə vədəsiz ünvan olmağın ağırlığı çəkilsə də, qəlblərdə, yaddaşlarda yeri əbədi qalır.



"İgid ölər, adı qalar" – bu el məsəlində həm xalqın igidlik nümunələri, həm də ona olan əzəmətli münasibət əksini tapıb. Zaman-zaman torpaq üzərində yetişən igidlər Vətənin dar məqamında onun haqqını qan tökərək, can verərək müdafiə edib və qoynunda əbədi cənnət müjdəli məqama – şəhidliyə ucalıblar.

İkinci Qarabağ müharibəsi, 44 günlük Vətən savaşımızda qazanılan tarixi Zəfərdə 44 yaşlı şəhid polkovnik-leytenant Əfqan Abdurahmanovun da payı var...

Fevralın 21-də şəhidin məzunu olduğu təhsil ocağında – Bakının Binəqədi rayonundakı 30 saylı tam orta məktəbdə xatirə gecəsi keçirildi.

Həyat yoldaşı Rəqiyyə xanım, övladları Hilalə və Əlibəy, eləcə də müəllimləri, sinif yoldaşları Əfqanlı günlərə qayıdıb, onun xeyallarını, arzu və istəklərini xatirələrinin yaddaş kitabından sözə çevirib dilə gətirdilər.

Məzunu ilə qürur duyan məktəbin şərəf lövhəsində, şəhidləri sırasında onun da adı, şəkli var. Xatirə tədbiri də həmin lövhənin önündə başlandı.

Qonaqlara Birinci və İkinci Qarabağ müharibələrində şəhadətə ucalan məzunlar barədə məlumat verən məktəbin direktoru Rübabə Abdullayeva onların xatirəsini daim ehtiramla yad etdiklərini dedi. Direktor məktəbdəki 32 sinfin hər birinin bir şəhidin adı ilə bağlı olduğunu və bu yolla onların xatirəsini uşaq və yeniyetmələrin yaddaşına köçürməyə çalışdıqlarını bildirdi.

Sonra tədbir məktəbin akt zalında davam etdi. Dövlət himninin səslənməsi ilə başlanan mərasimdə bədii kompozisiya təqdim olundu. Məktəblilərin ifasında şeirlər və vətənpərvərlik mövzusunda hikmətli kəlamlar səsləndirildi.

Şəhidin ömür yoluna nəzər salan videoçarx nümayiş olundu. Burada məktəbə ilk qədəm qoyduğu andan şəhadətə ucaldığı günədək çəkilən fotoları yer almışdı.

Çıxışlarda onun vətəninə sonsuz məhəbbətindən, mübarizliyindən, peşəkar zabit kimi hərb sənətini mükəmməl bilməsindən söz açıldı.

Sonda şəhidin xanımı tədbirin təşkilinə görə məktəb kollektivinə təşəkkür etdi, belə anım tədbirlərinin onlara təsəlli olduğunu dedi.

Xatırladaq ki, Əfqan Abdurahmanov 1976-cı il mayın 25-də Bakı şəhərində anadan olub. Binəqədi rayonundakı V. Əzizov adına 30 nömrəli tam orta məktəbdə təhsil alıb. 1995-1997-ci illərdə hərbi xidmətdə olub. Sonra ali hərbi təhsil alıb. 2016-cı ilin Aprel döyüşlərinin də iştirakçısı olmuş Əfqan Abdurahmanov Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azad edilməsində şücaət göstərib. Oktyabrın 10-da bu istiqamətdə döyüşdə şəhid olub.

Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilən Ə.Abdurahmanov "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə də təltif edilib.

**Həmidə Nizamiqızı**

# Tarix Muzeyində elmi-praktik seminar



AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) birgə təşkilatçılığı ilə "Xocalı faciəsi – milli varlığımıza vurulan zərbə" adlı elmi-praktik seminar keçirilib.

Muzeyin icraçı direktoru Fərhad Cabbarov erməni silahlı dəstələrinin Xocalıda törətdiyi soyqırımının insanlıq əleyhinə cinayət kimi dünyada tanıtmaq üçün görülən işlərdən, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən bəhs edib.

Xocalı hadisələrinin şahidi, Əməkdar müəllim Murad Şükürov acı xatirələrini bölüşüb.

Muzeyin elmi işçilərindən Laçın Mustafayevin "Xocalı abidələri bəşəriyyətin maddimədəni irsidir", Ləman Musayevanın "Xocalı dəhşətləri – bəşəriyyətin mental sağlığına vurulan növbəti zərbə", ADPU-nun magistrantı Aytac Rəhimovanın "Xocalı gənclərin gözü ilə" mövzularında məruzələri dinlənilib.

Xocalı soyqırımından bəhs edən "Müharibə uşaqları" filmi nümayiş olunub.

Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynovun oğlu Murad Hüseynov, "Müharibə uşaqları" filminin operatoru Nizami Abbas və digər çıxış edənlər də tariximizə qanla yazılan qırğından bəhs ediblər.

# Dini terminlərin orfoqrafiya və orfoepiyası

## Dilçilik İnstitutunda müzakirələr aparılıb

Fevralın 23-də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda "Dini terminlərin orfoqrafiya və orfoepiyası" mövzusunda elmi seminar keçirilib.

İnstitutun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli tədbiri açaraq bildirib ki, ölkəmizdə hər il din sahəsində çoxlu sayda əsərlər nəşr olunur. Dini nəşrlərin elmi və linqvistik keyfiyyətinin artırılması üçün vahid terminologiyanın yaradılması vacibdir. Həmin terminlərin Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normalarına uyğun yazılması, tələffüz olunması vacib məsələdir.

Filologiya elmləri doktoru Nəriman Seyidəliyev "Dini terminlərin Azərbaycan dilində işlənmə formaları" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, ərəb və fars mənşəli terminlərdən istifadə zamanı Azərbaycan dilinin qrammatik qaydalarına əməl olunmalıdır. Məsələn, Muhəmməd deyil, Məhəmməd kimi tələffüz olunmalıdır. Allah-təala deyil, Allah-taala, Allahü-əkbər deyil, Allahu-əkbər, səlavət deyil, salavat yazılmalıdır.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran, Dinşünaslıq ekspertiza şöbəsinin müdiri Nahid Məmmədov çıxış ediblər. Onlar dini ədəbiyyatların nəşri və tərcüməsi, mövcud vəziyyəti və problemlərindən danışıblar.

Nahid Məmmədov qeyd edib ki, dini ədəbiyyatların dilimizə tərcüməsi zamanı yaxşı tərcümələrlə yanaşı, qüsurlu, Azərbaycan dili normaları ilə səsləşməyən, sintaktik qaydalara uyğun gəlməyən birləşmələrin, yad terminlərin üstünlük təşkil etdiyi tərcümələr də mövcuddur. Məlumdur ki, dini ədəbiyyat məzmun etibarilə spesifikdir, eyni zamanda dini terminlərlə zəngin olur. Terminlərin düzgün ifadə olunması ilə yanaşı, ərəb-fars sözlərinin dilimizdə tam mənanı ifadə edə biləcək uyğun sözlərlə əvəzlənməsi də vacibdir.

Vurğulanıb ki, dini sözlərin və terminlərin yazılışında ciddi səhvlərə yol verilir, hədislərdə sözlərin tələffüzünə fikir verilmir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb.

"Şuşanın simaları"

# Uzun nəfəsi, bənzərsiz zəngüləsi...

"Şuşa İli"ndə mədəniyyət paytaxtımızın görkəmli simaları haqqında silsiləmizi davam etdiririk. Bu dəfə Azərbaycanın musiqi beşiyi Qarabağda muğam sənətinin inkişafında mühüm xidmətləri olmuş görkəmli sənətkarlardan Hacı Hüsünü yada salacağıq.

Hüsü Niftalı oğlu Kazımlı 1839-cu ildə Şuşanın Çölqala məhəlləsində anadan olub. Açıqfikirli və məlumatlı olan atası təhsilə, mədəniyyətə önəm verib. Ona görə də erkən çağlardan Hüsünün təlim-tərbiyəsinə diqqət yetirib. O, ilk təhsilini molla məktəbində alır, ərəb, fars dillərini öyrənir. Muğama, musiqiyə maraq göstərir. Çox keçmir şaqraq və məlahətli səsi ilə diqqəti çəkir.

Həmin dövrdə Şuşada xanəndəlik məktəbi açan Xarrat Qulu Hüsünü yanına dəvət edir. Səsini, musiqi duyumunu yoxlayıb məktəbinə yazdırır. O, müəllimindən ifaçılıq sənətinin sirlərini öyrənir. Hüsü şuşalılar qarşısında ilk dəfə tarzən Mirzə Sadıqcanın müşayiəti ilə "Çahargah" oxuyur və alqışlarla qarşılanır. Gündən-günə tanınan və sevilən gənc xanəndənin şöhrəti Azərbaycanın hüdudlarını aşır... İran hökmdarı Nəsrəddin şah 1880-ci ildə gənc Hüsünü Təbrizə oğlunun toy məclisinə dəvət edir. Məşhur İran musiqiçilərinin də çıxış etdiyi toy ziyafəti başa çatanda şah tərəfindən birinci mükafat Hacı Hüsüyə verilir.

Görkəmli musiqişünas Firidun Şuşinski araşdırmasında yazır: "Azərbaycan vokal sənətinin görkəmli nümayəndəsi olan Hacı Hüsü, sözün həqiqi mənasında, böyük xanəndə olub. O, bənzərsiz səsi və improvizasiyası ilə xanəndəlik sənətində yeni bir dövr açıb. Eyni zamanda da bu sənəti yüksək bir məqama çatdırıb. O, nəinki muğam oxumaqda, eyni zamanda bütün Azərbaycan musiqisinin bütün sahələrində böyük ustad olub. Qədim xalq musiqisini sonsuz bir məhəbbətlə sevib. Şərq, eləcə də Azərbaycan səhnəsi lirik-dramatik, tenor tipli səslər çox görüb. Lakin Şərqdə Hacı Hüsünün səsi kimi hərtərəfli tembr gözəlliyinə malik ikinci bir incə və təravətli səs olmamışdır".



Sevimli müəllimi Xarrat Qulu dünyasını dəyişəndən sonra Hacı Hüsü tanınmış maarifçi Mir Möhsün Nəvvabla görüşür. Ustadının xatirəsini yaşatmaq, musiqi məclisi yaratmaq fikrini ona bildirir. Beləliklə, Şuşada "Musiqişünaslar məclisi"nin əsası qoyulur. Məclisin üzvləri sadəcə çalıb-oxumaqla kifayətlənmir, həmçinin muğam sənətini inkişaf etdirir və davamçılarını yetişdirirlər. Bir sıra araşdırmalarda bildirilir ki, Hacı Hüsü ilk dəfə olaraq Şuşada "Xanəndələr ittifaqı" da yaradıb. Onun üzvləri arasında dövrün tanınmış ifaçılarından Keçəçioğlu Məhəmməd, Malıbəyli Cümşüd, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Malıbəyli Həmid, Məşədi Məmməd Fərzəliyev və başqaları olub.

Hacı Hüsü həm də Xurşidbanu Natəvanın çox hörmət bəslədiyi xanəndələrdən olub. Xan qızının məclislərində yaxından iştirak edib. O, şamaxılı Mahmud ağanın və bakılı Məşədi Məlik Mansurovun da məclislərinə tez-tez dəvət edilib.

Hacı Hüsü Şərq klassiklərinin qəzəllərini böyük şövqlə, ilham və məhəbbətlə oxuyub. Bu səbəbdən də xalq arasında "gözəllik aşiqi" adlandırılıb. Hətta haqqında əfsanə və rəvayətlər də yaranıb. Belə qeyd edilir ki, görkəmli sənətkar muğamlar üzərində günlərlə, həftələrlə çalışar, təkmilləşdirər, yeni-yeni guşələr və xallar əlavə edərmiş. O, "Rast", "Şur", "Mahur" və başqa muğamlara bənzərsiz yeniliklər gətirib. Musiqişünas F.Şuşinski "Qarabağ xanəndələri" kitabında yazır: "O, "Kürdü" muğamına "Şahnaz"ı əlavə edərək birlikdə "Kürdü-Şahnaz" oxuyub".

Cəlil bəy Bağdadbəyov "Qarabağ xanəndələri haqqında xatirə" kitabında belə qeyd edir: "Hacı Hüsü oxuyarkən şəhərin uzaq məhəllələrindən gələr və bu cazibəli səsə qulaq asardılar. Onun uzun nəfəsi, bənzərsiz zəngüləsi var idi...".

Görkəmli sənətkar ömrünün müdrik çağlarında Həcc ziyarətində olur. Bundan sonra toy məclislərində oxuması xurafatçılar tərəfindən birmənalı qarşılanmır. O, bunlara əhəmiyyət vermədikdə ruhanilərin təzyiqlərinə məruz qalır.

Hacı Hüsü uzun müddət Şuşada Gövhər ağa məscidində azan çəkər və içindəki yanğını minacatla söndürərmiş. Hərdən minbərdə əvvəlkitək ucadan "Segah" da oxuyar, zilə qalxar və zəngüləri ilə hər kəsi kədərləndirərmiş.

Azərbaycan vokal sənətinin dərin bilicisi, görkəmli xanəndə Hacı Hüsü ömrünün müdrik çağlarında Aşqabad (indi Türkmənistanın paytaxtı) şəhərinə köçüb. Vətəndən uzaq düşən xanəndə burada ehtiyac içində yaşayıb. 1898-ci ildə, 59 yaşında vəfat edib.

**Savalan Fərəcov**

Novruza doğru

# Od qalar – köz olar...

Novruz həyatın ritmi hesab edilir. Bu ritmi, ahəngi yaradansa Novruz bayramının əsas atributlarını (su, od, yel, torpaq) əhatə edən mərasimlərdir. Novruz ayinləri yaradılışı idrak etmənin, təbiət-insan münasibətlərinin mahiyyətini anlamağın vasitələridir.



Novruz öncəsi ilaxır çərşənbələrdən ikincisi bu il martın 1-nə təsadüf edən Od çərşənbəsidir. Od (istilik) insanları soyuqdan, qorxulu qüvvələrdən qoruduğuna, çiyini bişmiş etdiyinə və digər səbəblərə görə əcdadlarımız tərəfindən müqəddəs hesab olunub. Bir sıra folklor örnəklərində oda sakral yanaşma mövcuddur. Məsələn, "Odun üstünə su tökəndə od əyəsinin (sahibinin) acığına gələr, sənə sədəmə (bəla) toxuyar", "Murdar əsgiyə od düşməz", "Ocağın üstünə su tökmək, ya da ayaqlayıb söndürmək olmaz. Yoxsa ocaq sahibinin acığına gələr, adama zərər toxundurar" kimi nümunələrdə odun sahibinin olmasına işarə vurulur. Hətta od xalq düşüncəsində o qədər müqəddəs hesab olunur ki, pak olmayanı yandırmadığı belə iddia edilir. Ulularımız oda daha ali məfhum kimi yanaşıb, ondan çox şey diləyiblər. Necə ki, Novruz tonqalından atılanda dərd-azarımızın odda yanacağına inanırıq. Ulusumuzca odun qüdrətinə inam o dərəcədə güclüdür ki, Novruz bayramında hətta yataq xəstələri belə yaxınlarının köməyi ilə azı üç dəfə tonqalın üstündən keçirilir. Həmin şəxsin tezliklə şəfa tapacağına əminlik ifadə olunur. Ahıl insanlar böyük tonqaldan atıla bilmədiyi üçün ocaqdan götürülən və aralıda qoyulan odun üzərindən addımlayaraq keçirlər.

AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Xəyalə Ağayeva Novruz bayramını atəşpərəstliyə bağlamaq cəhdləri olduğunu qeyd edir. Bildirir ki, bu bayramla əlaqəli mərasimlərdə günəşlə, odla bağlı ünsürlər çox olsa da, araşdırmalar göstərir ki, Novruz zərdüştilikdən də çox-çox qədimdir və bu dində Novruz bayramından öz məqsədinə uyğun istifadə edilib. Alimin sözlərinə görə, keçmişdə yeni anadan olmuş körpəni ocağın-odun başına dolandırmaqla paklayarmışlar. Uşaq paklandıqdan sonra ananın ocağına verilərmiş. Hətta odla paklanmamış uşaq təmiz hesab edilməz, ana onu ocağına ala bilməz, rahat olmazmış. Bu inamın izi "Çevir ocağa, al qucağa" atalar sözündə də yaşadılır...

Xalq yaddaşında Novruzun əsas atributlarından olan odla bağlı xeyli deyim-duyum örnəkləri var. Məsələn, "Ocaq yananda səs çıxırsa, deyərlər ki, kimsə sözünü danışır", "Ocağı dağıdan xeyir tapmaz", "Od çərşənbəsində ocağı boş qoymazlar", "Od qalar – köz olar, Qız qalar – söz olar", "Oda pənah aparanın ocağı sönməz", "Odla oynayan odsuz qalar" və s. nümunələrdə odun inanclar sistemində fərqli semantika daşıdığı görünür. Odla bağlı alqışlarda onun insan həyatındakı vacib əhəmiyyətinə işarə edilir: "Ocağın odlu, qazanın qaynar olsun", "Ocağına nur çiləsin", "Ocağın bərəkətli olsun". Od həm də ulularımızın and yeri olub: "Od haqqı", "Gün haqqı", "Çıraq haqqı"...

Bütün bu xalq yaradıcılığı örnəkləri əski inanc sistemimizdə od kultuna olan münasibəti göstərməklə yanaşı, odun bəşəriyyətin taleyində rolunu da ifadə edir.

Ocağınız həmişə odlu-közlü olsun! Od çərşənbəniz mübarək! Darıxmayın, sevimli Novruza Yel və Torpaq çərşənbələri qaldı...

**Fariz Yunisli**

# Dünya rəssamlarını tanıyaq – yeni layihə

Azərbaycan Dövlət Rəsm Qalereyası "ARTCİRCLE" layihəsinin icrasına başlayıb. Layihə müxtəlif ölkələrdən olan rəssamları tanıtmaq, onların yaradıcılığı ilə yaxından tanış olmaq və Azərbaycanın incəsənəti barədə xarici auditoriyalara məlumat verməyin yeni alətlərini tapmaq, həmçinin mədəni müxtəlifliyin təmin edilməsinə töhfə vermək məqsədi daşıyır.

Dünyada mədəni sahədə baş verən proseslər, incəsənətdə sürətlə dəyişən tendensiyalar və yeniliklər əməkdaşlığa, qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə, xarici rəssamlarla fikir mübadiləsinin aparılmasına zərurət yaradır.

Bu baxımdan yeni layihə ölkəmizdə incəsənət sahəsində mütəxəssisləri, həmçinin yerli rəssamları, həvəskarları xarici rəssamlarla virtual məkanda tanış edəcək, onların təcrübəsindən faydalanmağa, innovativ ideyalarını bölüşməyə təşviq edəcək.

"Zoom" proqramı vasitəsilə müsahibə formatında reallaşacaq "ARTCİRCLE" layihəsinin videomateriallı Azərbaycan Dövlət Rəsm Qalereyasının rəsmi saytı (www.azgallery.az) və sosial media hesabları vasitəsilə yayımlanacaq.




# Azərbaycan alimləri Baburilər sülaləsi ilə bağlı konfransa qatılıblar

Özbəkistan Elmlər Akademiyasının (ÖEA) Biruni adına Şərqşünaslıq İnstitutunda hibrid formatda keçirilən "Baburilər sülaləsi: tarixi, ədəbiyyatı, mədəniyyəti" adlı beynəlxalq elmi konfransa Azərbaycan alimləri də qatılıblar.

Konfransı ÖEA-nın vitse-prezidenti, Biruni adına Şərqşünaslıq İnstitutunun direktoru Baxrom Abduhalimov açaraq görkəmli şair, tarixçi, dövlət xadimi Zəhirəddin Məhəmməd Babur və Baburilər sülaləsi haqqında danışıb.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov çıxışında Zəhirəddin Məhəmməd Baburu Şərq mədəniyyətində, ədəbiyyatında mühüm yer tutan şair, eyni zamanda böyük sərkərdə, dövlət adamı kimi xarakterizə edib. Bildirib ki, şairin özbək dilində yazdığı "Baburname" əsəri Azərbaycanda da tanınır.



Konfransa videoformatda qoşulan Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri, professor Ramiz Əskər "Ankara Milli Kitabxanasında Baburun əsərləri", Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri Almaz Ülvi Binnətova "Baburnamə"də təzkirəçilik ənənələri", institutun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Bəxtiyar Məmmədov "Baburun əsərləri ümumtürk mədəniyyətinin tərkib hissəsi kimi" mövzularında məruzələr ediblər.

# "Qarabağ – tarixi-mədəni irsimizdən" kitabının təqdimatı keçirilib




"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin layihəsi olan "Qarabağ – tarixi-mədəni irsimizdən" kitabının təqdimatı keçirilib.

Fevralın 21-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində keçirilən tədbirdə idarənin Aparat rəhbəri Read Qasımov, Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov, kitabın müəllifləri – tarix elmləri doktoru Vəfa Quliyeva və tarix üzrə fəlsəfə doktoru Qənirə Pirquliyeva, eləcə də professorlar Qafar Cəbiyev, dosentlər Pərvin Ahənçi, Hicran Mahmudova, Əsgər Əhməd çıxış edərək nəşr haqqında fikirlərini bölüşüblər.

Qeyd olunub ki, kitabda Qarabağın tarixi, numizmatikası, epiqrafik abidələri, xalçaçılıq, dulusçuluq, milli geyimləri, bədii metal və zinət əşyaları haqqında ətraflı məlumatlar yer alıb. Azərbaycan və ingilis dillərində nəşr olunan kitab Azərbaycan qarabağşünaslığına töhfədir.

Kitabda Qarabağın Xristianlıq və İslam dövrü epiqrafik abidələri də tədqiq edilib. Qarabağda mövcud olan xristian məbədlərinin Azərbaycan xalqının mədəni irsi olduğu bir daha epiqrafik abidələr əsasında təsdiqlənib. İslam dövrü abidələri üzərində olan epiqrafik yazılara əsasən Qarabağda yaşayıb fəaliyyət göstərən alim, memar, nəqqaş, xəttat, sufi şeyxləri, Qarabağ memarlıq məktəbi banilərinin adları tarixə salınıb.

Nəşrdə Qarabağın qədim dövrlərdən bəri, əsrlər boyunca bənzərsiz sənət əsərləri yaradan istedadlı sənətkarları, onları yetişdirən sənətkarlıq məktəbləri haqqında geniş bəhs olunub.

Vurğulanıb ki, kitab erməni vandalları tərəfindən Qarabağda Azərbaycan xalqına, onun mədəni irsinə qarşı apardıqları soyqırımına bir cavabdır və mədəni irsin bərpası istiqamətində əhəmiyyətli vasitədir.

# "Xaç atası"nın "ata"sı

## Koppola müasir filmlərin bir çoxunu bəyənmir

50 il əvvəl ekranlara çıxan "Xaç atası" filmi ilə dünya şöhrəti qazanan amerikalı rejissor Frensis Ford Koppola müasir kino sənayesindən o qədər də razı deyil. Kinorejissor bu barədə fikirlərini "GQ" jurnalına müsahibəsində bölüşüb.

Koppola bildirib ki, əvvəllər Hollivudda müxtəlif studiyaların filmlərini görürdük. İndi isə "Marvel" studiyasının filmləri üstünlük təşkil edir. Rejissorun sözlərinə görə, bu filmlər fərqli görünmək üçün yeni versiyalarda yaradılsa da, onlar əslində, bir filmin oxşarı, prototipləridir: "Mən o filmlərin hər ikisindən eyni epizodu çıxarıb onları bir araya gətirib bir filmdə birləşdirə bilərdim...".

Üç il əvvəl "Marvel" studiyasının filmlərini "kino" hesab etmədiyi üçün mənfi reaksiya ilə üzləşən həmkarı Martin Skorsezenin müdafiəsinə qalxan Koppola yenə bu mövqedə qaldığını bildirib, hətta o filmlərin "nifrətə layiq olduğunu" deyib.

Koppola müsahibədə Denis Villnyovun "Qum təpəsi" ("Dune") və Keri Fukunaqanın "Ölmək zamanı deyil" ("No Time to Die") filmləri barədə danışarkən onları "istedadlı kinorejissorların yaxşı filmləri" hesab etdiyini, lakin yenə də bu filmlərdə oxşarlıq hiss olunduğunu bildirib.

Qeyd edək ki, "Qum təpəsi" bu il "Oskar" mükafatı üzrə 10 nominasiyada namizəddir. "Ölmək zamanı deyil" filmi isə üç nominasiya üzrə "Oskar"a iddia edir.

Müsahibə zamanı Koppola rejissor Stiven Spilberqin "Vestsayd əfsanəsi" ("West Side Story") filmini kinoteatrlarda görmək istədiyini dilə gətirib: "İstəyirəm ki, "Vestsayd əfsanəsi" filmi insanlara kinoteatral nümayişin onlayn platformalarda yayımdan daha vacib olduğunu xatırlatsın. Çünki striminq – sadəcə, ev videosudur...".



O, kino sahəsində çalışan övladlarına da həmişə filmlərinin özəlliyi olmasını tövsiyə etdiyini deyib: "Mən həmişə Sofiyaya (qızı – red.), uşaqlarıma deyirəm ki, filmləri həmişə daha özəl etməyə çalışın. O zaman sizin incəsənətiniz də bir möcüzə olacaq, çünki sizin sənət əsəriniz başqasında olmayan materialları özündə əks etdirəcək...".

## Xatirə təqvimi

26 fevral – 1 mart

### Azərbaycan

**26 fevral 1892** – Məşhur musiqiçi Leopold Vitoldoviç Rostropoviç (1892 - 31.7.1942) Rusiyanın Voronej şəhərində doğulub. 1925-ci ildə ailəsi ilə Bakıya köçüb, 1931-ci ilədək burada yaşayıb, Azərbaycan Dövlət Konservatoriyasının professoru kimi pedaqoji fəaliyyət göstərib. Azərbaycanda ilk simli kvartetin yaradıcılarından biri olub.

**26 fevral 1927** – Aktyor, rejissor, teatr təşkilatçısı Ələkbər Süheyli (Ələkbər Fərəculla oğlu Əliyev; 1879-1927) vəfat edib. Akademik Dram Teatrında, Bakı Türk İşçi Teatrında çalışıb. Milli aktrisaların olmadığı illərdə qadın rollarını oynayıb.

**27 fevral 1901** – Xalq yazıçısı Əli Qara oğlu Vəliyev (1901 – 2.2.1983) Zəngəzur qəzasının (indiki Ermənistanın Sisyan rayonu) Ağudi kəndində anadan olub. 1918-ci ildə ailəsi Qubadlı rayonuna köçüb. Mətbu orqanlarda çalışıb. "Nənəmin cəhrəsi", "Qarlı dağlar", "Ürək dostları", "Anaqız", "Ötən günlər" və s. kitabların müəllifidir.

**27 fevral 1984** – Aktyor, rejissor Eldar Həsən oğlu Əliyev (1936-1984) vəfat edib. "Dəli Kür", "Mən ki gözəl deyildim" və s. filmlərdə çəkilib, Dövlət Rus Dram Teatrında çalışıb.

**28 fevral 1894** – Xalq artisti Mustafa Həşim oğlu Mərdanov (1894 – 28.12.1968) Cənubi Azərbaycanın Mərənd şəhərində doğulub. Tiflisdə Azərbaycan teatrında, Bakıda Akademik Milli Dram Teatrında çalışıb. "O olmasın, bu olsun", "Əhməd haradadır?", "Qanun naminə" və s. filmlərdə çəkilib. Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edib.

**28 fevral 1908** – Tanınmış türkoloq, filologiya elmləri doktoru Hadi İsmayıl oğlu Mirzəzadə (1908-1965) Bakıda anadan olub.

**28 fevral 1918** – Xalq artisti Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova; 1918 – 4.1.2000) Kazan şəhərində doğulub. 1938-ci ildən Akademik Dram Teatrının aktrisası olub, 1993-cü ildən Bakı Bələdiyyə Teatrında çalışıb. "Şərikli çörək", "Romeo mənim qonşumdur", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**28 fevral 1940** – Əməkdar incəsənət xadimi, rəssam Kamal Əhməd oğlu Əhmədov (1940 – 29.11.1994) anadan olub. Çoxfiqurlu tablo və portretlər, mənzərə və natürmortlar, abstrakt kompozisiyaların müəllifidir.

**28 fevral 1944** – Əməkdar artist, tanınmış müğənni Nəzakət Əli qızı Məmmədova (1944 – 21.10.1980) Gəncə şəhərində doğulub. Opera və Balet Teatrının solisti olub.

**1 mart 1947** – Əməkdar artist Novruz Yaqub oğlu Əliyev (Novruz Qartal; 1947 – 8.1.2022) anadan olub. Dövlət Akademik Musiqili Teatrının aktyoru olub, film və televiziya tamaşalarında çəkilib.

**1 mart 1952** – Əməkdar incəsənət xadimi, kinoşünas, kinodramaturq Aydın Ərşad oğlu Dadaşov (1952 – 15.3.2017) Ağdamda doğulub. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

### Dünya

**26 fevral 1564** – İngilis şairi və dramaturqu Kristofer Marlo (Christopher Marlowe; 1564-1593) anadan olub.

**26 fevral 1802** – Fransız yazıçısı, şair, dramaturq Viktor Hüqo (Victor-Marie Hugo; 1802 – 22.5.1885) anadan olub. "Səfillər", "Gülən adam", "Paris Notr-Dam kilsəsi" və s. romanların müəllifidir.

**27 fevral 1807** – Məşhur Amerika şairi Henri Uodsuort Lonqfello (Henry Wadsworth Longfellow; 1807-1882) anadan olub.

**27 fevral 1902** - Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1962) laureatı Con Steynbek (John Ernst Steinbeck; 1902 – 20.12.1968) anadan olub. Əsərləri: "Qəzəb salxımları", "Edemdən şərqə", "Siçanlar və insanlar haqqında" və s.

**27 fevral 1912** – İngilis şairi və yazıçısı Lourens Darrel (Lawrence Durrell; 1912-1990) anadan olub. Qardaşı Cerald Darrellə birlikdə heyvanlar haqqında məşhur əsərlərin müəllifidir.

**27 fevral 1913** – Rus şairi Sergey Vladimiroviç Mixalkov (1913 – 27.9.2009) anadan olub.

**27 fevral 1932** – Amerika aktrisası Elizabet Teylor (Elizabeth Rosemond Taylor; 1932 – 23.3.2011) anadan olub. İki dəfə "Oskar" mükafatına layiq görülüb.

**28 fevral 1823** – Fransız tarixçisi, yazıçı və şərqşünas Jozef Ernest Renan (Joseph Ernest Renan; 1823-1892) anadan olub. Peyğəmbərlər haqqında kitabların müəllifidir.

**28 fevral 1892** – Müasir Türkiyə teatrının qurucularından biri, kino aktyoru və rejissoru Mühsin Ertuğrul (1892-1979) anadan olub.

**28 fevral 1893** – Rus kinorejissoru, SSRİ Xalq artisti Vsevolod Pudovkin (1893-1953) anadan olub. Kinematoqrafiyaya dair əsərlərin müəllifidir, bir çox rejissorların (o cümlədən azərbaycanlı) müəllimi olub.

**1 mart 1445** – İntibah dövrünün məşhur italyan rəssamı Sandro Botticelli (əsl adı – Alessandro di Mariano di Vanni Filipepi; 1445 – 17.5.1510) anadan olub.

**1 mart 1810** – Polyak bəstəkarı və pianoçusu, romantizmin parlaq nümayəndəsi Frederik Şopen (Frederic François Chopin; 1810 – 17.10.1849) anadan olub.

**1 mart 1892** – Yapon yazıçısı Ryunoske Akutaqava (1892-1927) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Naşirlər və kitabçılar bir araya gəliblər

Atatürk Mərkəzində Azərbaycan Nəşriyyatları Assosiasiyası İctimai Birliyinin (ANAİB) təşkilatçılığı ilə yerli naşirlər və kitab mağazaları nümayəndələrinin görüşü keçirilib.



Görüşü ANAİB-in sədri, "Hədəf nəşrləri" və "XAN" nəşriyyatının təsisçisi Şəmil Sadiq açaraq ölkədə kitab nəşri, satışı və təbliğinin vəziyyəti barədə danışıb.

"Altun kitab" nəşriyyatının rəhbəri Rafiq İsmayılov ötən əsrin 90-cı illərindən bu günə kimi Azərbaycanda kitab bazarının keçdiyi yoldan danışıb. Keçmiş SSRİ dövründə, eləcə də müstəqillik illərində kitabın yayılmasında təşkilatçılıq, yaranan problemlər, iş mexanizmlərinin müqayisəli şəkildə üstünlük və çətinlikləri barədə məlumat verib.

"Parlaq imzalar" nəşriyyatının rəhbəri Nurman Tariq nəşr edilən kitabların oxucuya çatdırılmasında problemlərdən söz açıb.

Bakı Kitab Mərkəzinin satış meneceri Cəmilə Abdullayeva tərcümə kitablarının hazırlanmasında peşəkarlığın artırılmasının zəruriliyini vurğulayıb.

Tədbir müzakirələrlə davam edib.

№16 (1889)
25 fevral 2022
www.medeniyyet.az

# Azərbaycanın musiqi ulduzları Moskva səhnəsində





*əvvəli səh. 1-də*

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva musiqi axşamında iştirak edib. Leyla Əliyeva konsertdən əvvəl sənətçilərlə görüşüb.

Azərbaycanın Əməkdar artisti Fuad İbrahimovun dirijorluğu ilə keçirilən konsertdə solistlər – Xalq artistləri Dinara Əliyeva (vokal), Elçin Əzizov (vokal), Murad Adıgözəlzadə (fortepiano), Yusif Eyvazov (vokal), Əməkdar artistlər Ceyla Seyidova (skripka), Elvin Qəniyev (skripka), Sahib Paşazadə (tar), Şəhriyar İmanov (tar) Azərbaycan və Rusiya bəstəkarlarının əsərlərindən ibarət repertuar təqdim ediblər.



Proqramda Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Fərhad Bədəlbəyli, Pyotr Çaykovski, Mixail Qlinka, Aleksandr Borodin və digər bəstəkarların sevilən musiqiləri yer alıb.

Konsert tamaşaçıların alqışları ilə qarşılanıb. Qeyd edək ki, vokalçılar Dinara Əliyeva, Elçin Əzizov və Yusif Eyvazov Rusiya opera səhnələrində çıxış edirlər və yerli sənətsevərlərə xüsusilə yaxşı tanışdırlar.

Xalq artisti Yusif Eyvazov jurnalistlərə müsahibəsində deyib: "Hər birimizə təbrik düşür. Çünki bu, möhtəşəm musiqi bayramıdır. Biz incəsənət xadimləri üçün burada iştirak etmək şərəflidir. Azərbaycan ilə Rusiya arasında dostluq münasibətləri hər sahədə inkişaf edir. Biz isə bu əlaqələrin daha da inkişaf etdirilməsində yaxından iştirak etməyə hazırıq...".

Xalq artisti Elçin Əzizov da möhtəşəm konsertin təşkil olunduğunu bildirib: "Burada tanınmış, istedadlı insanlar toplaşıb. Azərbaycan ifaçıları klassik rus bəstəkarlarının əsərlərini ifa etməklə ölkəmizin rus mədəniyyətinə, incəsənətinə, musiqisinə olan xoş münasibətini sərgiləmiş olurlar...".

Moskva səhnəsində çıxış etməkdən şərəf hissi duyduğunu bildirən Xalq artisti Murad Adıgözəlzadə Azərbaycan günlərinin təşkilinin önəmini vurğulayıb.

"Moskvada Azərbaycan günləri" silsilə tədbirlərinin martın 1-dək davam etməsi nəzərdə tutulub.

# "Tamaşaçıların əhval-ruhiyyəsi bizi əmin edir ki, əbəs yerə çalışmırıq"

Bəlkə xüsusi simvollara inanmaq, həqiqətən də, uğur gətirir? Çünki düz iki il əvvəl, 2020-ci ilin 20 fevralında Heydər Əliyev Sarayında təşkil edilən "Shanson cover band" qrupunun konsertini dinləyən musiqisevərlər hələ də onu xoş təəssüratla xatırlayırlar.

Pandemiyadan öncə bu məkanda gerçəkləşmiş son konsertlərdən biri kimi yaddaşlara yazılan həmin musiqi axşamından düz iki il sonra, özü də diqqətçəkən tarixdə – 22.02.2022-də saat 20:00-da musiqisevərlər yenə Heydər Əliyev Sarayında şanson gecəsinə yığışmışdılar.

Beynəlxalq müsabiqələr laureatı Cəlal Abbasov "Shanson cover band" ansamblı ilə səhnədə idi. Proqram başlanarkən səslənən sürəkli alqış konsertin səbirsizliklə gözlənildiyindən xəbər verirdi...

Qeyd edək ki, ansamblın bədii rəhbəri, pianoçu Nizami Əliyev və ifaçı Cəlal Abbasovun repertuar seçimində zövq və düşüncələri tam olaraq auditoriyaya hesablanmışdı. Xalq mahnılarımız, milli rəqs musiqilərimizə yeni yanaşma böyük maraqla qarşılandı.

Sözləri nəğməkar şair İslam Səfərliyə, musiqisi Cahangir Cahangirova aid "Zərif gülüşlüm" mahnısında "Gəl sevək vətənim Azərbaycanı" nəqəratını tamaşaçılar müğənni ilə birlikdə oxudular. "Şalaxo" rəqsi isə hətta musiqimizin tanınan simalarını belə ayağa qaldırıb rəqsə qoşmuşdu. Paytaxtımızın multikultural ab-havasını əks etdirən gecədə gürcü, yəhudi və digər xalqların mahnıları bir-birini əvəz edirdi. Rok, pop, caz və milli ritmlərdə təqdim olunan proqram, yəqin ki, hələ uzun müddət tamaşaçıların ovqatına xoş əhval bəxş edəcək...

Konsert bitmişdi. Bütün zal ayaq üstə daha bir mahnının ifa ediləcəyinə ümid bəsləyirdi. Amma bunun üçün növbəti konserti gözləmək lazım gələcək. Çünki nəzərdə tutulan vaxt tamamlanmışdı. 20:00-da başlanan konsert 22:00-da 22 mahnı ilə başa çatmışdı.



Müğənni Cəlal Abbasov konsertdən sonra düşüncələrini bizimlə bölüşdü: "Çox şadam ki, insanlar maraq göstərib gəldilər. Konsertin, ümumilikdə zalın əhval-ruhiyyəsi əmin edir ki, biz əbəs yerə çalışmırıq. Belə bir vəziyyətdə, yəni bütün dünyada və ölkəmizdə pandemiya ilə mübarizə şəraitində insanların şən əhvalda olması gələcəyə ümid verir. Bu, mənim solo olaraq dördüncü, "Shanson cover band" ansamblımla isə ikinci konsertim idi. Əməyi keçən hər kəsə, xüsusilə də Heydər Əliyev Sarayının rəhbərliyinə və kollektivinə yaratdığı şəraitə görə təşəkkür edirəm...".

**Lalə Azəri**

# İsveç saytı Qobustana səyahəti tövsiyə edir



İsveçin "Cawamediya" xəbər saytında "Tur Heyerdal və Odinin ovu – Qobustan, Azərbaycan" başlıqlı məqalə dərc olunub. Yazıda səyahət həvəskarlarına Qobustandakı qaya rəsmləri ilə tanış olmaq tövsiyə edilir.

Müəllif yazır ki, norveçli tədqiqatçı və səyyah Tur Heyerdal həmişə mənim səyahət qəhrəmanım olub, ona görə də onun Azərbaycana, xüsusən də Qobustana müntəzəm səfəri məndə maraq doğururdu.

Məqalədə Bakıdan bir qədər cənub-qərbdə yerləşən Qobustandakı qayaüstü rəsmlərin eramızdan 10 min il əvvələ aid olduğu qeyd edilir. Vurğulanır ki, bu, insanlıq tarixi üçün əhəmiyyətə malik qaya rəsmləridir.

Bildirilir ki, Qobustanda tapılan qaya rəsmləri Skandinaviyada tapılan rəsmlərə bənzədiyi üçün bu yerlər məşhur səyyah Tur Heyerdalın marağına səbəb olub. O, qaya üzərində olan təsvirlərdə günəşin təsvirinə əsaslanaraq, buradakı insanların o zaman şimala səyahət etdiyini və skandinaviyalıların əslində hazırda Azərbaycan adlanan ərazidən gəlməsi fərziyyəsi ilə çıxış edib.

"Heyerdal Azərbaycanın inkişaf etmiş qədim sivilizasiyanın vətəni olduğunu düşünürdü. O hesab edirdi ki, burada yaşamış insanlar yük heyvanlarından istifadə edərək şimala səyahət edib. O, bütün bu nəzəriyyələri XIII əsrdə qələmə alınmış və qədim Skandinaviya mifologiyasına əsaslanan "Ynglinqa Saqa"ya əsaslanaraq Odin tanrısının şimala Aşer adlı torpaqdan – Azərbaycandan gəldiyi qənaətində idi...", – deyə yazıda qeyd olunur.

Müəllifin sözlərinə görə, bu və digər faktlar Qobustanı ziyarət etmək üçün yaxşı səbəbdir.

# Bakıda "FantazEU" festivalı keçiriləcək

*əvvəli səh. 1-də*

"Mədəni müxtəliflik həm də innovasiya və yeni düşüncə tərzini inkişaf etdirir. Məhz mədəni müxtəliflik sayəsində Avropa əsrlər boyu dəyişən dünyaya uyğunlaşa bilib. Buna görə də Aİ və onun üzv dövlətləri mədəni müxtəlifliyi dəstəkləmək və qorumaq öhdəliyinə sadiqdirlər. "FantazEU" festivalı Azərbaycan vətəndaşlarına yaradıcılıq və mədəni müxtəliflik nümayiş etdirmək üçün imkan yaradacaq. Bu, həmçinin Aİ ilə Azərbaycan arasında tərəfdaşlığın daha da inkişafına töhfədir", – deyə Peter Mixalko bildirib.

Vurğulanıb ki, festival mədəniyyət və kreativliyin nümayişi üçün gözəl ideyadır, müxtəliflik Azərbaycan mədəniyyətinin inkişafı baxımından da önəmlidir. Tədbirin proqramıda seminarların, konsertlərin, film nümayişlərinin daxil edildiyini diqqətə çatdıran Peter Mixalko deyib ki, tamaşaçılar bu festival vasitəsilə Azərbaycan və Avropanın bir sıra bənzərliklərinin şahidi olacaqlar: "İnanıram ki, festival sayəsində insanlarımız və xalqlarımız bir-birini daha yaxından tanıyacaq".

Litva səfiri Egidiyus Naviskas bildirib ki, pandemiya ilə bağlı ikiillik fasilədən sonra festival, nəhayət, adi formatda keçiriləcək. Festival çərçivəsində litvalı rəssamın əsərlərindən ibarət sərgi açılacaq.

Latviya səfirinin müavini Viya Buşa deyib ki, festivalda ölkəsinin tarixi barədə film nümayiş olunacaq, latviyalı fotoqrafın çəkdiyi şəkillər nümayiş olunacaq.

Fransa səfirinin mədəniyyət müşaviri Jerome Kelle ölkəsinin festivalda filmlərlə təmsil olunacağını diqqətə çatdırıb.

Macarıstan səfirliyinin mədəniyyət və təhsil üzrə əməkdaşı Mixali Qruber bildirib ki, İçərişəhərdə macar memarlıq abidələri ilə bağlı sərgi nümayiş olunacaq.

"FantazEU" 2018-ci ildən Aİ-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən təşkil edilən "Fantazia" mədəni irs festivalının davamıdır. Festival öz adını XIX əsrin sonlarında Bakıda tikilmiş, Avropa və yerli memarlıq elementlərini bir araya gətirən "Fantazia" hamamından alıb.

Tədbirlər Beynəlxalq Muğam Mərkəzi, ADA Universiteti, Nizami Kino Mərkəzi, Bakı Kitab Mərkəzi, "Art Tower" qalereyası və digər məkanlarda baş tutacaq.

# Sərhədləri açın, amma ehtiyatla...

## Dünya Turizm Təşkilatı rəhbərindən ölkələrə çağırış



Turizm sektorunun uğurlu bərpası üçün beynəlxalq səyahətlərə qoyulan məhdudiyyətləri aradan qaldırmağa davam etmək lazımdır.

BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) Baş katibi Zurab Pololikaşvili bu barədə RİA "Novosti"yə müsahibəsində bildirib. O qeyd edib ki, UNWTO həmişə ümumi səyahət məhdudiyyətləri ilə bağlı Dünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alıb. Biz bütün hökumətləri təşkilatın son tövsiyələrinə əməl etməsini istəyirik.

Qeyd edək ki, DST-ün son tövsiyələri zəruri və ya yüngülləşdirilmiş məhdudiyyətləri yenidən nəzərdən keçirərək onların aradan qaldırılmasından ibarətdir.

Pololikaşvilinin fikrincə, COVİD-19 peyvənd sertifikatları test və nəzarətlə birlikdə turizmin effektiv, təhlükəsiz və ədalətli şəkildə bərpası üçün həllin bir hissəsidir: "Turizmi yenidən hərəkətə gətirməyin yeganə yolu məlumatlara əsaslanan yanaşmadır, bu, eyni zamanda insanlar üçün maksimum təhlükəsizliyi təmin edir".

Onun sözlərinə görə, dünyada turizm sektorunun bərpası kövrək və qeyri-bərabər olaraq qalır, buna görə də UNWTO bütün hökumətləri həm praktiki, həm də maliyyə tədbirləri ilə turizm sektorunu dəstəkləməyə davam etməyə çağırır. Qeyd edək ki, artıq bir sıra ölkələr koronavirus əleyhinə peyvəndləmə tədbirlərini də nəzərə alaraq, mart ayından xarici turistlər üçün sərhədləri açmaq niyyətindədir. Bu sırada ilk addımlardan birini Avstraliya atıb.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 117 il əvvəl...

**26 fevral 1905-ci ildə** Rusiya çarı II Nikolay Qafqazda vəziyyətə nəzarəti gücləndirmək üçün birbaşa idarəçilik – canişinlik sistemini bərpa edib. Qafqaz canişinliyi 1844-cü ildə yaradılmışdı, bölgədə hakimiyyət canişinə məxsus idi, o yalnız çarın qarşısında hesabat verirdi. Sonradan regionun quberniyalara bölünməsi ilə canişinlik idarəçiliyi tədricən aradan qalxmışdı.

### 111 il əvvəl...



**28 fevral 1911-ci ildə** Bakıda Opera Teatrının (indiki Akademik Opera və Balet Teatrı) açılışı olub. Açılış gecəsində M.Musorqskinin "Boris Qodunov" operası oynanılıb. 1928-ci ildə sənət ocağı Dövlət Böyük Opera Teatrı, 1934-cü ildə M.F.Axundzadə adına Opera və Balet Teatrı adlandırılıb.

### 105 il əvvəl...

**26 fevral 1917-ci ildə** Rusiyada Fevral (burjua) inqilabı başlanıb. Petroqradda (Sankt-Peterburq) silahlı toqquşmalar nəticəsində hakimiyyət iflic olub. İki gün sonra Çar II Nikolay taxt-tacdan imtina etməyə məcbur oldu. Üç əsr sürən Romanovlar sülaləsinin mütləqiyyəti sona çatdı. Müvəqqəti hökumət quruldu.

### 101 il əvvəl...

**26 fevral 1921-ci ildə** Sovet Rusiyası ilə İran arasında diplomatik münasibətlər haqqında müqavilə imzalanıb. Müqavilədə Xəzərdən istifadə haqqında bənd də yer almışdı. Çar Rusiyasının İrana tətbiq etdiyi əsas qadağalar (o cümlədən Xəzərdə hərbi donanma saxlamağa qadağa) yeni müqavilədə qüvvədə qalmışdı.

### 96 il əvvəl...



**26 fevral 1926-cı ildə** Bakıda Birinci Türkoloji Qurultay açılıb. Martın 6-dək davam edən qurultayda Sovet İttifaqı və xarici ölkələrdən 100-dən çox nümayəndə iştirak edib. SSRİ-də yaşayan türkdilli xalqların əksəriyyətinin təmsil olunduğu qurultayda latın qrafikalı yeni əlifbaya keçidin prinsipləri də işlənib hazırlanmışdı.

### 36 il əvvəl...

**28 fevral 1986-cı ildə** İsveçin Baş naziri Ulof Palme Stokholmda həyat yoldaşı ilə kinoteatrdan evinə piyada qayıdarkən qətlə yetirilib. Qətllə bağlı bir neçə nəfər cinayət məsuliyyətinə cəlb edilsə də, icraçı və sifarişçisini müəyyən etmək mümkün olmadı, 2020-ci ildə işə xitam verildi.

### 34 il əvvəl...

**27 fevral 1988-ci ildə** Sumqayıtda erməni ekstremistlərin və bir qrup kriminal elementin iştirakı ilə kütləvi təxribat törədilib. Bandit dəstəyə başçılıq edən erməni Eduard Qriqoryana məhkəmə 12 il iş verdi və o, SSRİ dağılandan sonra azadlığa çıxdı. Moskvadan gələn istintaq qrupu hadisənin mahiyyətini ört-basdır etdi. "Sumqayıt olayları" SSRİ xüsusi xidmət orqanlarındakı ermənilər tərəfindən hazırlanmışdı və azərbaycanlıları ermənilərə düşmən kimi dünyaya tanıtmaq, Qarabağda başlanan separatçılığa haqq qazandırmaq məqsədi daşıyırdı.

### 31 il əvvəl...

**27 fevral 1991-ci ildə** ABŞ və Britaniyanın rəhbərlik etdiyi müttəfiqlər koalisiyasının İraqa qarşı başladığı "Səhrada tufan" əməliyyatı başa çatıb. 12 günlük müharibə nəticəsində İraq işğal etdiyi Küveytdən çıxmağa məcbur oldu.

### 30 il əvvəl...

**28 fevral 1992-ci ildə** Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları və Hindistanla diplomatik münasibətlər qurub. ABŞ Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də, Hindistan isə dekabrın 26-da tanımışdı.

### 29 il əvvəl...

**28 fevral 1993-cü ildə** erməni terror qrupunun Rusiyanın Şimali Qafqaz dəmiryolunda – Qudermes stansiyası (Çeçenistan) yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarını partlatması nəticəsində 11 nəfər həlak olub, 18 nəfər yaralanıb.

**Hazırladı: V.Orxan**

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kollektivi tanınmış ədəbiyyatşünas alim, şair, Azərbaycan Yazıçılar Birliyi Qarabağ bölməsinin sədri, muzeyin yaxın dostu və Üzeyir irsinin təbliğatçısı

**Ənvər Əhmədin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 602
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641